# AZƏRBAYCAN SƏNAYE BANKI
# AÇIQ SƏHMDAR CƏMİYYƏTİ (ASC)

**Konsolidə edilmiş maliyyə hesabatları və müstəqil auditorun rəyi**
31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə

**MÜNDƏRİCAT**

| | **Səhifə** |
|---|---|
| 31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması və təsdiq edilməsi ilə bağlı Rəhbərliyin məsuliyyətinin bəyanı | 1 |
| Müstəqil auditorun hesabatı | 2 - 3 |
| Konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabat | 4 |
| Konsolidə edilmiş məcmu gəlir haqqında hesabat | 5 |
| Konsolidə edilmiş kapitalda dəyişikliklər haqqında hesabat | 6 |
| Konsolidə edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabat | 7 - 8 |
| Konsolidə edilmiş maliyyə hesabatları üzrə qeydlər | 9 - 65 |

## 31 DEKABR 2025-CI İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ KONSOLİDƏ EDİLMİŞ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI

Bu bəyannamə "Azərbaycan Sənaye Bankı" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra "Bank") və onun törəmə müəssisələrinin (birlikdə "Qrup") konsolidə edilmiş maliyyə hesabatları ilə bağlı Qrup rəhbərliyinin və müstəqil auditorların göstərilən məsuliyyətlərini fərqləndirmək məqsədi ilə hazırlanmışdır.

Rəhbərlik, 31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə Qrupun maliyyə vəziyyətini, əməliyyat nəticələrini, pul vəsaitlərinin hərəkəti və səhmdar kapitalında dəyişiklikləri əks etdirən Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun konsolidə edilmiş maliyyə hesabatlarının düzgün hazırlanması üçün məsuliyyət daşıyır.

Konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıda göstərilənlər üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və tətbiq edilməsi;
- Mühasibat uçotu siyasəti daxil olmaqla, məlumatları müvafiq, etibarlı, müqayisə edilə bilən və başa düşülən bir şəkildə təqdim edilməsi;
- Maliyyə hesabatlarının MHBS-a müvafiq hazırlanması və ya əgər hər hansı bir kənarlaşma varsa onun maliyyə hesabatlarında bəyan edilməsi və izahı;
- Yaxın gələcəkdə Qrup işini normal şərtlər altında davam etdirdiyi halda, hesabat tarixinə maliyyə hesabatlarının daimilik prinsipi əsasında hazırlanması.

Rəhbərlik, həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır:

- Qrup daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin qurulması, tətbiqi və təmin edilməsi;
- Qrupun konsolidə edilmiş maliyyə hesabatlarının MHBS-a uyğun olaraq düzgün hazırlanmasını təmin etmək məqsədi ilə istənilən vaxt müvafiq mühasibat uçotu qeydlərinin dəqiqliklə aparılması;
- Azərbaycan Respublikasının qanunvericiliyinə və mühasibat uçotu standartlarına uyğun olaraq qanuni mühasibat uçotu qeydlərinin aparılması;
- Qrupun aktivlərinin təhlükəsizliyini təmin etmək üçün bu cür tədbirlərin görülməsi; və
- Saxtakarlıq, səhv və digər qanunauyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

31 dekabr 2025-ci il tarixinə olan maliyyə hesabatları 21 Aprel 2026-cı il tarixində Qrupun İdarə Heyəti tərəfindən təsdiq edilmişdir.

**İdarə Heyəti tərəfindən:**

| | |
|---|---|
| **Kənan Orucov** | **Sərvan Mikayılov** |
| **İdarə Heyətinin Sədri** | **Baş Maliyyə İnzibatçısı** |
| 21 Aprel 2026-cı il | 21 Aprel 2026-cı il |
| Bakı, Azərbaycan Respublikası | Bakı, Azərbaycan Respublikası |

Grant Thornton
**Grant Thornton Azerbaijan**
Damirchi Tower
21st floor
37 Khojali Avenue
Baku, Azerbaijan

T +994 124047537
+994 12 4047538
F. +994 12 4047543
E info@az.gt.com
www.grantthornton.az

# MÜSTƏQİL AUDİTORUN HESABATI

**Azərbaycan Sənaye Bankı Açıq Səhmdar Cəmiyyətinin (ASC) Səhmdarlarına:**

## Konsolidə edilmiş maliyyə hesabatlarının auditi üzrə hesabat

### Rəy

Biz Azərbaycan Sənaye Bankı Açıq Səhmdar Cəmiyyəti (bundan sonra "Bank") və onun törəmə müəssisəsinin (birlikdə "Qrup") 31 dekabr 2025-ci il tarixinə təqdim edilən konsolidə edilmiş maliyyə vəziyyəti hesabatı, həmin tarixdə başa çatmış il üzrə konsolidə edilmiş məcmu gəlir, konsolidə edilmiş kapitalda dəyişikliklər və konsolidə edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabatların, eləcə də əsas mühasibat prinsiplərindən ibarət olan konsolidə edilmiş maliyyə hesabatlarına edilmiş qeydlərin audit yoxlamasını apardıq.

Bizim rəyimizcə, konsolidə edilmiş maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından Qrupun 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq düzgün və ədalətli əks etdirir.

### Rəy üçün əsas

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın *"Konsolidə edilmiş Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti"* bölməsində təsvir edilir. Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının *Peşəkar Mühasiblər üçün müəyyən etdiyi "Etika məcəlləsinin" (Beynəlxalq Müstəqil Standartlar daxil olmaqla)* (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq biz Qrupdan asılı deyilik və biz digər etik öhdəliklərimizi MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

### Rəhbərliyin və konsolidə edilmiş maliyyə hesabatlarının idarə edilməsi üzrə məsul tərəflərin öhdəlikləri

Rəhbərlik, Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (IASB) tərəfindən dərc edilmiş MHBS Mühasibat Uçotu Standartlarına uyğun olaraq konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması və ədalətli təqdim edilməsinə, eləcə də rəhbərliyin fırıldaqçılıq və ya səhv nəticəsində yaranan əhəmiyyətli təhriflərdən azad olan konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanmasını təmin etmək üçün zəruri hesab etdiyi daxili nəzarətə görə məsuliyyət daşıyır.

Konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik Qrupun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətini qiymətləndirmək, fasiləsiz fəaliyyətlə bağlı məsələləri açıqlamaq və rəhbərlik Qrupu ləğv etmək və ya fəaliyyətini dayandırmaq niyyətində olmadığı və ya bunu etməkdən başqa real alternativi olmadığı təqdirdə, mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipindən istifadə etməkdən məsuldur.

İdarəçilik üzrə məsul tərəflər Qrupun maliyyə hesabatvermə prosesinə nəzarət etmə öhdəliyi daşıyır.

**MÜSTƏQİL AUDİTORUN HESABATI (davamı)**
**Azərbaycan Sənaye Bankı Açıq Səhmdar Cəmiyyətinin (ASC) Səhmdarlarına:**

**Konsolidə edilmiş maliyyə hesabatlarının auditi üzrə auditorun öhdəlikləri**

Bizim məqsədimiz bütövlükdə konsolidə edilmiş maliyyə hesabatlarında saxtakarlıq və ya səhvlərdən dolayı əhəmiyyətli təhriflərin mövcud olmadığına təminat vermək və rəyimizi əks etdirən auditor hesabatı təqdim etməkdir. Məqbul əminlik yüksək səviyyədə əminlik olsa da, Beynəlxalq Audit Standartlarına uyğun aparılmış audit yoxlamasının hər zaman mövcud olan təhrifləri aşkarlayacağına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya səhvdən yarana bilər və fərdi və ya ümumilikdə istifadəçilərin bu konsolidasiya edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlara təsir göstərməsi gözlənilə bilərsə, əhəmiyyətli hesab olunur.

Beynəlxalq Audit Standartları əsasında aparılan audit yoxlamasının bir hissəsi kimi biz audit prosesində peşəkar mühakimə və peşəkar skeptisizm prinsipi tətbiq edirik. Biz həmçinin:

- Konsolidə edilmiş maliyyə hesabatlarında saxtalaşdırma və ya səhvlərdən irəli gələn ciddi təhrif risklərini aşkarlayır və təhlil edir, bu risklərə cavab verən audit prosedurların hazırlayır və icra edir və rəyimiz üçün əsas təşkil edəcək kifayət qədər və müvafiq dəlil toplayırıq. Saxtakarlıqdan irəli gələn əhəmiyyətli təhrifləri aşkarlamama riski səhvlərdən qaynaqlanan riskdən daha yüksəkdir, belə ki saxtakarlıq gizli sövdələşmə, saxtalaşdırma, məqsədli buraxılma, təhrif və ya daxili nəzarətin pozulmasını kimi hallarla əlaqəli olur.
- Qrupun daxili nəzarətinin effektivliyi barədə rəy bildirmək məqsədi daşımayan, lakin şəraitə uyğun olan audit prosedurlarını hazırlamaq üçün auditlə əlaqəli daxili nəzarət haqqında anlayış əldə etmək.
- İstifadə olunan mühasibat uçotu siyasətlərinin uyğunluğunu və rəhbərlik tərəfindən edilən mühasibat uçotu qiymətləndirmələrinin və əlaqəli açıqlamaların məqbulluğunu qiymətləndiririk.
- Rəhbərliyin mühasibat uçotunun davamlılıq əsasını istifadəsinin uyğunluğu və əldə edilmiş audit sübutlarına əsasən, Qrupun davamlı fəaliyyət göstərmə qabiliyyətinə ciddi şübhə yarada biləcək hadisələr və ya şərtlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin olub-olmaması barədə nəticə çıxarırıq. Əgər əhəmiyyətli bir qeyri-müəyyənliyin mövcud olduğu qənaətinə gəlsək, auditor hesabatımızda konsolidasiya edilmiş maliyyə hesabatlarındakı əlaqəli açıqlamalara diqqət yetirməliyik və ya bu cür açıqlamalar qeyri-kafidirsə, rəyimizi dəyişdirməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinə qədər əldə edilmiş audit sübutlarına əsaslanır. Lakin gələcək hadisələr və ya şərtlər Qrupun davamlı fəaliyyət göstərməsini dayandırmasına səbəb ola bilər.
- Açıqlamalar da daxil olmaqla, konsolidasiya edilmiş maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, eləcə də konsolidasiya edilmiş maliyyə hesabatlarının əsas əməliyyatları və hadisələri ədalətli təqdimata nail olmaq üçün təmsil edib-etmədiyini qiymətləndiririk.
- Konsolidə edilmiş maliyyə hesabatları barədə rəy bildirmək üçün Qrup daxilindəki müəssisələrin maliyyə məlumatları və ya biznes fəaliyyətləri ilə bağlı kifayət qədər və müvafiq audit sübutları əldə etmək. Qrup auditinin istiqamətləndirilməsi, nəzarəti və icrası üçün məsuliyyət daşıyırıq. Audit rəyimiz üçün yalnız biz məsuliyyət daşıyırıq.

Biz idarəetməyə məsul şəxslərlə digər məsələlərlə yanaşı, auditin planlaşdırılan əhatə dairəsi və vaxtı, eləcə də əhəmiyyətli audit tapıntıları, o cümlədən audit zamanı müəyyən etdiyimiz daxili nəzarətdə hər hansı əhəmiyyətli çatışmazlıqlar barədə əlaqə saxlayırıq.

**GRANT THORNTON**
**Bakı, Azərbaycan Respublikası**

**22 Aprel 2026-cı il**

# KONSOLİDƏ EDİLMİŞ MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2025-Cİ İL TARİXİNƏ

| | Qeydlər | 31 dekabr 2025-ci il AZN | 31 dekabr 2024-cü il AZN |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| Pul vəsaitləri və Azərbaycan Respublikasının Mərkəzi Bankında yerləşdirilmiş vəsaitlər | 5 | **53,712,340** | 41,967,963 |
| Banklardan alınacaq vəsaitlər | 6 | **413,409,804** | 424,357,816 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 7 | **334,656,978** | 290,713,423 |
| Digər məcmu gəlirdə ədalətli dəyərində tanınan maliyyə aktivləri | 8 | **1,162,900** | 1,621,651 |
| İstifadə hüququ olan aktivlər | 9 | **608,966** | 778,866 |
| Tikili və avadanlıqlar | 10 | **895,563** | 1,250,727 |
| Qeyri-maddi aktivlər | 11 | **1,158,245** | 1,435,567 |
| Təxirə salınmış vergi aktivləri | 23 | **804,899** | 510,591 |
| Digər aktivlər | 12 | **12,198,050** | 10,181,583 |
| **CƏMİ AKTİVLƏR** | | **818,607,745** | 772,818,187 |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| **ÖHDƏLİKLƏR:** | | | |
| Banklar və dövlət qurumlarına qarşı öhdəlik | 13 | **208,494,445** | 176,670,800 |
| Müştərilər tərəfindən yerləşdirilmiş depozitlər | 14 | **479,805,827** | 473,164,810 |
| Digər öhdəliklər | 15 | **10,057,923** | 8,985,605 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **698,358,195** | 658,821,215 |
| **KAPİTAL:** | | | |
| **Bankın səhmdarlarına aid edilən kapital:** | | | |
| Səhmdar kapitalı | 16 | **60,000,000** | 60,000,000 |
| Xəzinə səhmləri | 16 | **(344,900)** | (344,900) |
| Digər məcmu gəlirdə ədalətli dəyərində tanınan maliyyə aktivlərinin yenidən qiymətləndirməsi üzrə gəlir | 8 | **(232,992)** | 134,009 |
| Bölüşdürülməmiş mənfəət | | **60,827,442** | 54,207,863 |
| **CƏMİ KAPİTAL** | | **120,249,550** | 113,996,972 |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **818,607,745** | 772,818,187 |

**İdarə Heyəti tərəfindən:**

ASB AZƏRBAYCAN SƏNAYE BANKI AÇIQ SƏHMDAR CƏMİYYƏTİ AZƏRBAYCAN RESPUBLİKASI OPEN JOINT STOCK COMPANY AZERBAIJAN INDUSTRY BANK AZERBAIJAN REPUBLIC

**Kənan Orucov**
**İdarə Heyətinin Sədri**

21 Aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

**Sərvan Mikayılov**
**Baş Maliyyə İnzibatçısı**

21 Aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

1-30-cu qeydlər konsolidə edilmiş maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir

## KONSOLİDƏ EDİLMİŞ MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT
## 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

| | Qeydlər | 2025 AZN | 2024 AZN |
|---|---|---|---|
| Faiz gəlirləri | 17 | **39,839,521** | 36,044,791 |
| Faiz xərcləri | 17 | **(20,863,450)** | (18,256,353) |
| **Dəyərsizləşmə zərərləri üzrə xərclərin/(geri qaytarılmanın) tanınmasından əvvəl xalis faiz gəliri** | | **18,976,071** | 17,788,438 |
| Müştərilərə verilən kreditlər və avanslar, banklarda yerləşdirilmiş depozitlər və digər təminatlar üzrə dəyərsizləşmə zərərlərinin (ayırması)/bərpası, xalis | 18 | **(1,174,994)** | 139,776 |
| **Xalis faiz gəliri** | | **17,801,077** | 17,928,214 |
| Xarici valyuta ilə əməliyyatlar üzrə xalis gəlir | 19 | **3,528,536** | 2,756,672 |
| Haqq və komissiya gəlirləri | 20 | **12,907,761** | 12,792,308 |
| Haqq və komissiya xərcləri | 21 | **(12,728,950)** | (12,448,645) |
| Digər (xərclər)/gəlirlər-xalis | | **131,749** | 641,224 |
| **Xalis qeyri-faiz gəlirləri** | | **3,839,096** | 3,741,559 |
| **Əməliyyat gəlirləri** | | **21,640,173** | 21,669,773 |
| Əməliyyat xərcləri | 22 | **(13,361,608)** | (13,440,279) |
| **Mənfəət vergisindən əvvəlki mənfəət** | | **8,278,565** | 8,229,494 |
| Mənfəət vergisi xərcləri | 23 | **(1,861,544)** | (1,682,387) |
| Təxirə salınmış vergi gəliri/(xərci) | 23 | **202,558** | (37,131) |
| **İl üzrə xalis mənfəət** | | **6,619,579** | 6,509,976 |
| **Gələcək dövrlərdə mənfəət və ya zərər kimi yenidən təsnifləşdirilməyəcək maddələr** | | | |
| **Digər məcmu gəlir/(xərc)** | | | |
| Digər məcmu gəlirdə ədalətli dəyərində tanınan maliyyə aktivlərinin yenidən qiymətləndirməsi üzrə gəlir/(zərər) | | **(458,751)** | (386,328) |
| Əlaqədar təxirə salınmış vergi effekti | 23 | **91,750** | 77,266 |
| | | **(367,001)** | (309,062) |
| **CƏMİ MƏCMU GƏLİR** | | **6,252,578** | 6,200,914 |
| **HƏR SƏHM ÜZRƏ GƏLİR** | 24 | **0.110** | 0.108 |

**İdarə Heyəti tərəfindən:**

| | |
|---|---|
| Kənan Orucov | Şarvan Mikayılov |
| **İdarə Heyətinin Sədri** | **Baş Maliyyə İnzibatçısı** |
| 21 Aprel 2026-cı il | 21 Aprel 2026-cı il |
| Bakı, Azərbaycan Respublikası | Bakı, Azərbaycan Respublikası |

1-30-cu qeydlər konsolidə edilmiş maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

**KONSOLİDƏ EDİLMİŞ KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT**
**31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**

| | Səhmdar kapitalı | Xəzinə səhmləri | Digər məcmu gəlirdə ədalətli dəyərində tanınan maliyyə aktivlərinin yenidən qiymətləndirməsi üzrə gəlir | Bölüşdürülməmiş mənfəət | Cəmi Kapital |
|---|---|---|---|---|---|
| | AZN | AZN | AZN | AZN | AZN |
| **01 yanvar 2024-cü il** | 60,000,000 | (344,900) | 443,071 | 47,697,887 | 107,796,058 |
| İl üzrə xalis mənfəət | - | - | - | 6,509,976 | 6,509,976 |
| Digər məcmu zərər - vergi çıxılmaqla | - | - | (309,062) | - | (309,062) |
| Cəmi məcmu gəlir | - | - | (309,062) | 6,509,976 | 6,200,914 |
| **31 dekabr 2024-cü il** | 60,000,000 | (344,900) | 134,009 | 54,207,863 | 113,996,972 |
| İl üzrə xalis mənfəət | - | - | - | **6,619,579** | **6,619,579** |
| Digər məcmu zərər - vergi çıxılmaqla | - | - | **(367,001)** | - | **(367,001)** |
| Cəmi məcmu gəlir | - | - | **(367,001)** | **6,619,579** | **6,252,578** |
| **31 dekabr 2025-ci il** | **60,000,000** | **(344,900)** | **(232,992)** | **60,827,442** | **120,249,550** |

**İdarə Heyəti tərəfindən:**

Kənan Orucov
**İdarə Heyətinin Sədri**

21 Aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

Şərvan Mikayılov
**Baş Maliyyə İnzibatçısı**

21 Aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

1-30-ci qeydlər konsolidə edilmiş maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

## KONSOLİDƏ EDİLMİŞ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT (DAVAMI) 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

| | Qeydlər | 31 dekabr 2025-ci il AZN | 31 dekabr 2024-cü il AZN |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTLƏRİNDƏN YARANAN PUL VƏSAİTLƏRİ:** | | | |
| Mənfəət vergisindən əvvəl il üzrə mənfəət | | **8,278,565** | 8,229,494 |
| *Nağdsız və əsas əməliyyat fəaliyyəti ilə əlaqəli olmayan maddələr üzrə düzəlişlər:* | | | |
| Müştərilərə verilmiş kreditlər və avansların dəyərsizləşmə zərərilərin silinməsi/ geri qaytarılması | 18 | **915,569** | (40,435) |
| Qarantiya üzrə ehtiyatın silinməsi | 18 | **222,226** | 19,212 |
| Banklardan alınacaq vəsaitlər üzrə dəyərsizləşmə zərərlərinin silinməsi/ geri qaytarılması | 18 | **37,199** | (118,553) |
| Dividend gəlirləri | | **-** | (50,000) |
| Tikili və avadanlıqlar köhnəlmə | 10 | **658,778** | 862,247 |
| Qeyri-maddi aktivlərin amortizasiyası | 11 | **613,191** | 544,040 |
| Müsadirə edilmiş aktivlər üzrə ehtiyatın silinməsi/geri qaytarılması | | **-** | (382,500) |
| İstifadə hüququ olan aktivlər üzrə köhnəlmə | 9 | **302,693** | 270,454 |
| Aktivlərin satışı üzrə gəlir | | **(6,151)** | (13,006) |
| Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri | | **11,022,070** | 9,320,953 |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklər:** | | | |
| **Əməliyyat aktivlərində azalma/(artma):** | | | |
| Azərbaycan Respublikası Mərkəzi Bankında məcburi ehtiyat depozitləri | | **(1,564,012)** | 9,098,338 |
| Müddətli depozitlər, günlük və bloklanmış hesablar | | **314,270,989** | 5,466,016 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | | **(44,859,124)** | (40,343,111) |
| Digər aktivlər | | **(1,610,645)** | (376,544) |
| **Əməliyyat öhdəliklərində (azalma)/artma:** | | | |
| Azərbaycan Respublikası Mərkəzi Bankına ödəniləcək məbləğ | | **-** | (34,469) |
| Banklar və dövlət qurumları tərəfindən yerləşdirilmiş depozitlər | | **31,823,645** | 20,175,261 |
| Müştərilər tərəfindən yerləşdirlimiş depozitlər | | **6,641,017** | 1,191,325 |
| Digər öhdəliklər | | **236,498** | 1,470,303 |
| Vergidən əvvəl əməliyyat fəaliyyətindən əldə edilən (istifadə edilən) istifadə olunan pul vəsaitləri | | **315,960,438** | 5,968,072 |
| Ödənilmiş mənfəət vergisi | 23 | **(1,785,922)** | (1,513,567) |
| **Əməliyyat fəaliyyətindən istifadə olunan xalis pul vəsaitləri** | | **314,174,516** | 4,454,505 |
| **İNVESTİSİYA FƏALİYYƏTLƏRİNDƏN YARANAN PUL VƏSAİTLƏRİ:** | | | |
| Əmlak və avadanlıqların alışı üzrə ödəniş | 10 | **(303,838)** | (121,893) |
| Əmlak və avadanlıqların satışından əldə edilən gəlir | | **6,151** | 13,006 |
| Qeyri-maddi aktivlərin alışı üzrə ödəniş | 11 | **(336,288)** | (442,615) |
| Dividendlərdən əldə edilən gəlir | | **-** | 50,000 |
| **İnvestisiya fəaliyyətindən istifadə olunan xalis pul vəsaitləri** | | **(633,975)** | (501,502) |

| | | | |
|---|---|---|---|
| **MALİYYƏ FƏALİYYƏTLƏRİNDƏN YARANAN PUL VƏSAİTLƏRİ:** | | | |
| Ödənilmiş dividend | | - | - |
| **Maliyyə fəaliyyətindən istifadə olunan xalis pul vəsaitləri** | | **-** | **-** |
| | | | |
| Pul vəsaitləri və onların ekvivalentlərində xalis azalma | | **313,540,541** | 3,953,003 |
| **İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | | **49,429,912** | 45,476,909 |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | 5.1 | **362,970,453** | 49,429,912 |

**İdarə Heyəti tərəfindən:**

**Kənan Orucov**
**İdarə Heyətinin Sədri**

21 Aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

**Sarvan Mikayılov**
**Baş Maliyyə İnzibatçısı**

21 Aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

## 1. Giriş

### 1.1. Hüquqi status və əməliyyatların təbiəti

"Azərbaycan Sənaye Bankı" Açıq Səhmdar Cəmiyyəti ("Bank") 1996-cı ildə Azərbaycan Respulikasında təsis edilmişdir. Bank Azərbaycan Respublikasında kommersiya bankçılığı xidmətlərinin göstərilməsi məqsədilə qeydiyyatdan keçmişdir və 28 sentyabr 1996-cı il tarixindən etibarən 241 nömrəli tam bank lisenziyası əsasında fəaliyyət göstərir. Bank, əvvəlcə "Kaspian İnvestisiya Bankı" kimi yaradılmış və 02 iyun 1998-ci ildə "Kapital İnvestisiya Bankı" ("Cİ Bank") olaraq adlandırılmış və 28 mart 2006-cı ildə Bank özünün hüquqi statusunu Açıq Səhmdar Cəmiyyətinə dəyişmişdir. 30 noyabr 2006-cı il tarixində Bankın adı "Azərbaycan Sənaye Bankı" ASC olaraq dəyişdirilmişdir. Bankın əsas fəaliyyət istiqamətləri kommersiya əməliyyatlarının həyata keçirilməsi, kreditlərin və zəmanətlərin verilməsi, qiymətli kağızlarla ticarət, depozitlərin cəlb edilməsi, köçürmələr, hesablaşma və kassa əməliyyatları, habelə xarici valyuta əməliyyatlarından ibarətdir. 31 dekabr 2025-ci ildə Bankın Azərbaycan Respublikasında müvafiq olaraq 6 filialı (31 dekabr 2024: 6 filialı) fəaliyyət göstərmişdir. Bankın qeydiyyatdan keçmiş ünvanı aşağıdakı kimidir: Bakı şəhəri, Suraxanı rayonu, AZ1045, "Dreamland" Yaşayış Kompleksi, Azərbaycan.

31 dekabr 2025-ci il və 31 dekabr 2024-cü il tarixlərinə aşağıdakı səhmdarlar Qrupun buraxılmış səhmlərinə sahib olmuşlar:

| | 2025 | 2024 | 2025 | 2024 |
|---|---|---|---|---|
| Səhmdar: | % | % | AZN | AZN |
| Anadolu İnvestment Company MMC | **98.4252%** | 98.4252% | **59,055,100** | 59,055,100 |
| Leyla Gözəl Abdolbari | **1.0000%** | 1.0000% | **600,000** | 600,000 |
| Azərbaycan Sənaye Lizinq MMC | **0.5748%** | 0.5748% | **344,900** | 344,900 |

Bank bir törəmə müəssisənin (bundan sonra "Törəmə müəssisə") ana şirkətidir və birlikdə (bundan sonra "Qrup") adlandırılırlar. Cənab Ahmad Abdolbari Gozal Qrupun son nəzarətedici sahibi olmuşdur. Hesabat ilindən sonra, 2026-cı ilin Mart ayının sonundan etibarən, cənab Karim Gozal Abdolbari Qrupun yeni nəzarətcisidir.

| Adı | Fəaliyyət göstərdiyi ölkə | Səhm payların səhmdarlara görə bölgüsü/səsvermə hüququ 2025 | 2024 | Nizamnamə kapitalı AZN 2025 | 2024 | Əməliyyat növü |
|---|---|---|---|---|---|---|
| Azərbaycan Sənaye Lizinq MMC | Azərbaycan Respublikası | **100%** | 100% | **1,000,000** | 1,000,000 | Lizinq |

"Azərbaycan Sənaye Lizinq" MMC Azərbaycan Respublikasında 20 aprel 2004-cü il tarixində qeydiyyatdan keçmiş məhdud məsuliyyətli cəmiyyətdir. Cəmiyyət "Cİ Lizinq" MMC kimi yaradılmış və daha sonra 06 fevral 2007-ci il tarixində adını "Azərbaycan Sənaye Lizinq" MMC-yə dəyişmişdir. Şirkətin əsas fəaliyyəti lizinq əməliyyatlarından ibarətdir, lakin il ərzində heç bir fəaliyyəti olmamışdır. Cəmiyyətin dövlət qeydiyyatından keçmiş ünvanı aşağıdakı kimidir: Zərifə Əliyeva küçəsi 3, Bakı AZ 1005, Azərbaycan Respublikası.

### 1.2. Təşkilatın əməliyyat mühiti

***Azərbaycan Respublikası.*** Azərbaycan Respublikası neft ixrac edən ölkə kimi, iqtisadiyyatı əsasən neft sektorundan asılıdır; neft həcmi və dəyəri baxımından dövlət büdcəsinə ən böyük töhfə verən sahədir. Bu səbəbdən, neftin qiyməti ölkə iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edir və neft qiymətlərində baş verən kəskin dəyişikliklər milli valyutanın dəyərdən düşməsi, iqtisadi və sənaye inkişafının zəifləməsi, həmçinin monetar sabitliyin pozulması kimi makroiqtisadi amillərə genişmiqyaslı təsir göstərir. 2014-cü ilin iyun ayının ortalarından etibarən neft qiymətlərində ani və kəskin azalma baş vermiş və bu azalma neft istehsal edən ölkələrə, o cümlədən Azərbaycana birbaşa təsir göstərmişdir. Nəticədə neft sənayesində gəlirlərin azalması, fiskal gəlirlərin aşağı düşməsi, neft hasilatının ixtisarı və bir sıra inkişaf layihələrinin dayandırılması müşahidə olunmuşdur. Beynəlxalq bazarlarda rəqabət qabiliyyətini qorumaq məqsədilə Azərbaycan Respublikasının Mərkəzi Bankı 21 fevral 2015-ci il tarixində yayımlanan mətbuat açıqlaması ilə manatın ABŞ dollarına nisbətdə 34% devalvasiyasını, eləcə də 21 dekabr 2015-ci il tarixində əlavə olaraq 48% devalvasiyanı həyata keçirmişdir.

## 1. Giriş

### 1.2. Təşkilatın əməliyyat mühiti (davamı)

Manatın ABŞ dollarına nisbətdə tədrici devalvasiyası 2016-cı il ərzində davam etmiş və ümumilikdə il üzrə təxminən 23% təşkil etmişdir. 2017-ci il ərzində manatın ABŞ dollarına nisbətdə məzənnəsi tarazlıq səviyyəsində sabit qalmışdır. 12 yanvar 2017-ci il tarixindən etibarən Azərbaycan Respublikasının Mərkəzi Bankı kommersiya banklarına tətbiq etdiyi 4%-lik məzənnə dəhlizini ləğv edərək valyutanın sərbəst üzən məzənnə rejiminə keçməsinə imkan yaratmışdır. 01 yanvar 2017-ci il tarixinə manatın ABŞ dollarına nisbətdə məzənnəsi 1,7707 AZN təşkil etmiş, 31 dekabr 2017-ci il tarixində isə 1,7001 AZN səviyyəsinə yüksəlmişdir. 2018, 2019, 2020, 2021, 2022, 2023, 2024 və 2025-ci illər ərzində manatın məzənnəsi sabit qalmış və 31 dekabr 2025-ci il və 31 dekabr 2024-cü il tarixlərinə ABŞ dollarına nisbətdə 1,7000 AZN səviyyəsində olmuşdur.

Neft qiymətlərindəki dəyişkənlik neft və enerji sektorunda fəaliyyət göstərən şirkətlərin maliyyə və likvidlik vəziyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir və bu sektor üzrə kreditləşmə portfeli də mövcud maliyyə və iqtisadi mühitdən mənfi təsirlənə bilər ki, bu da öz növbəsində sözügedən borcalanların öhdəliklərini vaxtında və tam həcmdə yerinə yetirmək qabiliyyətinə təsir göstərə bilər. Müştərilərin fəaliyyət şəraitinin pisləşməsi həmçinin rəhbərliyin pul vəsaitlərinin hərəkəti üzrə proqnozlarına, eləcə də maliyyə və qeyri-maliyyə aktivləri üzrə dəyərsizləşmənin qiymətləndirilməsinə təsir göstərə bilər. Mövcud olan məlumatlar çərçivəsində rəhbərlik gözlənilən gələcək pul axınları üzrə yenilənmiş qiymətləndirmələri dəyərsizləşmə testlərində əks etdirmişdir.

Gələcək dövrlərlə bağlı mövcud qeyri-müəyyənlik səbəbindən makroiqtisadi amillərdə gözlənilən dəyişikliklərin və bu dəyişikliklərə cavab olaraq görülə biləcək tədbirlərin Qrupun əməliyyatlarına təsirini dəqiq şəkildə qiymətləndirmək mümkün deyildir. Bununla belə, rəhbərlik mövcud şəraitdə Qrupun fəaliyyətinin dayanıqlılığını və inkişafını dəstəkləmək məqsədilə bütün zəruri tədbirləri gördüyünə inanır.

Ölkədə sahibkarlığın daha da inkişaf etdirilməsi və biznes mühitinin təkmilləşdirilməsi məqsədilə 2018 və 2019-cu illərdə vergi qanunvericiliyinin bir sıra istiqamətlər üzrə layihəsi hazırlanmış və müvafiq dəyişikliklər Milli Məclis tərəfindən qəbul edilmişdir. Bu dəyişikliklər biznesin dəstəklənməsi, vergidən yayınmanın və kölgə iqtisadiyyatının miqyasının azaldılması, vergi bazasının genişləndirilməsi, vergi inzibatçılığının təkmilləşdirilməsi, habelə mövcud və yeni vergi güzəştlərinin effektivliyinin artırılmasını əhatə edir.

Vergi qanunvericiliyinə edilmiş ən mühüm dəyişiklik kimi qeyri-neft sektorunun özəl bölməsində çalışan vətəndaşların əməkhaqlarından tutulan vergilər üzrə vergi güzəştlərinin verilməsir. Dəyişikliyə əsasən aylıq əməkhaqqı 8,000 manata qədər olan vətəndaşlar üçün 7 il müddətində gəlir vergisi üzrə 100 faizlik güzəşt verilib, 8,000 manatdan yuxarı olan məbləğdə muzdlu işlə əlaqədar gəlir əldə edən fiziki şəxslər üzrə isə gəlir vergisi 14 faiz həcmində müəyyənləşdirilib ki, bu da dövlətin sözügedən məsələdə çox böyük fiskal güzəştə getməsi deməkdir. Rəhbərlik vergi qanunvericiliyinə tətbiq olunan digər dəyişikliklərin Təşkilatın maliyyə hesabatlarına əhəmiyyətli təsirinin olmayacağını hesab edir.

2025-ci ilin sonunda Azərbaycan iqtisadiyyatı dəyişkən neft və qaz qiymətlərinin yaratdığı çətinliklərə və imkanlara baxmayaraq, uğurla inkişafını davam etdirmişdir. Azərbaycan Hökuməti iqtisadiyyatın şaxələndirilməsi və neft-qaz sektorundan asılılığın azaldılması məqsədilə mühüm iqtisadi və sosial islahatların həyata keçirilməsinə sadiqliyini qorumuşdur.

2025-ci il ərzində ümumi iqtisadi artım 1,5% təşkil etmişdir. Hesabat dövründə neft sektorunda istehsal 3,1% azalmış, qeyri-neft sektorunda isə 3,9% artım qeydə alınmışdır. Azərbaycanın strateji valyuta ehtiyatları artaraq 1 iyul 2025-ci il tarixinə 77 milyard ABŞ dollarına çatmışdır. Bu artımlar Azərbaycan manatının sabitliyinin qorunmasına və ölkənin iqtisadi dayanıqlığının güclənməsinə töhfə vermişdir.

## 1. Giriş

### 1.2. Təşkilatın əməliyyat mühiti (davamı)

Azərbaycan Respublikası Mərkəzi Bankının məlumatına əsasən, 2025-ci ildə illik baza inflyasiyası 4,5% olmuş və 4±2% hədəf intervalına uyğun səviyyədə formalaşmışdır. ARMB monetar şərtlərin idarə edilməsini və manatın məzənnə sabitliyinin təmin edilməsini davam etdirmiş, qlobal inflyasiya tendensiyalarını nəzərə alaraq uçot (refinanslaşdırma) dərəcəsini 2025-ci ilin dekabr ayı itibarı ilə 6,75% səviyyəsində müəyyən etmişdir (31 dekabr 2024-cü il: 7,25%).

"Fitch Ratings" beynəlxalq reytinq agentliyi 2025-ci ilin iyul ayında Azərbaycan Respublikasının kredit reytinqini 'BBB-' səviyyəsinədək yüksəltmiş və 2025-ci il ərzində bu reytinqi təsdiqləmişdir. Reytinqin yüksəldilməsi son illərdə həyata keçirilən effektiv iqtisadi siyasət, güclü fiskal göstəricilər və möhkəm xarici maliyyə buferləri ilə əlaqələndirilmişdir.

Bankın rəhbərliyi mövcud şəraitdə iqtisadi inkişafı yaxından izləyir və Bankın fəaliyyətinin yaxın gələcəkdə davamlılığını və ödəmə qabiliyyətini təmin etmək məqsədilə zəruri hesab etdiyi ehtiyat tədbirlərini həyata keçirir. Bank mövcud likvidlik mövqeyini dayanıqlı fəaliyyət üçün kifayət hesab edir. Bank likvidlik mövqeyini gündəlik əsasda monitorinq edir.

Rəhbərlik hesab edir ki, vergi qanunvericiliyində digər dəyişikliklər Qrupun konsolidasiya olunmuş maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərməyəcəkdir.

## 2. Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına Uyğunluq Haqqında Bəyanat

Bu konsolidə edilmiş maliyyə hesabatları Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (BMUSŞ) tərəfindən dərc edilmiş Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) və Maliyyə Hesabatlarının Beynəlxalq Şərhləri üzrə Komitə (MHBŞK) tərəfindən nəşr edilmiş Şərhlər əsasında hazırlanmışdır. Bundan əlavə, bu konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanmasında tətbiq edilən mühasibat uçotu siyasəti, qeyd 3.1-də təsvir olunan uçot siyasətindəki dəyişikliklər istisna olmaqla, 31 dekabr 2024-cü il tarixində başa çatan il üzrə konsolidasiya edilmiş maliyyə hesabatlarında tətbiq edilən siyasətlərə uyğun gəlir.

## 3 Standartlar, mövcud standartların şərhi və standartlara düzəlişlər

### 3.1 1 yanvar 2025-ci il tarixindən qüvvəyə minmiş və tətbiq edilmiş yeni standartlar

Aşağıda Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (BMHS) tərəfindən mövcud standartlara edilmiş aidiyyəti dəyişikliklər təqdim olunur. Rəhbərliyin apardığı qiymətləndirmə və peşəkar mülahizəsinə əsasən, qeyd olunan dəyişikliklərin Şirkətə təsiri olmadığı müəyyən edilmiş və nəticə etibarilə cari hesabat ili üzrə maliyyə hesabatlarında tətbiq edilməmişdir:

- Öhdəliklərin Cari və ya Uzunmüddətli Təsnifatı (MUBS 1-ə Düzəlişlər );
- Satış və Geriyə İcarə əməliyyatında icarə öhdəliyi (MHBS 16-ya Düzəlişlər );
- Təchizatçıların maliyyə sövdələşmələri (MHBS 7 və MUBS 7-yə düzəlişlər); və
- Müqavilə şərtləri ilə əlaqədar Uzunmüddətli Öhdəliklər (1 saylı MUBS-ə düzəlişlər).

Bu dəyişikliklərin ayrıca maliyyə hesabatlarına əhəmiyyətli təsiri olmadığından, müvafiq açıqlamalar təqdim edilməmişdir.

### 3.2 Hələ qüvvəyə minməmiş və şirkət tərəfindən erkən qəbul edilməmiş standartlar, şərhlər və mövcud standartlara dəyişikliklər

Şirkət tərəfindən hələ erkən qəbul edilməmiş və qüvvəyə minməmiş digər Standartlar və düzəlişlərə aşağıdakılar daxildir:

- Maliyyə Alətlərinin Təsnifatı və Ölçülməsinə düzəlişlər (MHBS 9 və MHBS 7-yə düzəlişlər);
- 18 saylı BMHS "Maliyyə Hesabatlarının Təqdimatı və Açıqlaması";
- BMHS 19 "İctimai Hesabatlılığı Olmayan Törəmə Müəssisələr: Açıqlamalar"; və
- Valyuta mübadiləsinin mümkün olmaması (21 saylı MUBS-ə Düzəlişlər).

### 3 Standartlar, mövcud standartların şərhi və standartlara düzəlişlər

### 3.2 Hələ qüvvəyə minməmiş və şirkət tərəfindən erkən qəbul edilməmiş standartlar, şərhlər və mövcud standartlara dəyişikliklər (davamı)

Bu maliyyə hesabatlarının təsdiqi tarixinədək BMHS tərəfindən dərc edilmiş, lakin hələ qüvvəyə minməmiş müvafiq yeni standartlar və mövcud standartlara dəyişikliklər Şirkət tərəfindən qabaqcadan tətbiq edilməmişdir.

Rəhbərlik müvafiq standartların hamısının qüvvəyə mindiyi tarixdən sonra başlayan ilk hesabat dövründə tətbiq olunacağını nəzərdə tutur. Sözügedən standartların Şirkətin ayrı-ayrı maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərəcəyi ehtimal olunmadığından, onların detallı açıqlanmasına ehtiyac duyulmamışdır.

### 4. Əhəmiyyətli Uçot Siyasətlərinin İcmalı

### 4.1. Ümumi mülahizələr

Hazırkı konsolidə edilmiş maliyyə hesabatları hər növ aktiv, öhdəlik, gəlir və xərc üzrə MHBS ilə müəyyən edilmiş qiymətləndirmə prinsiplərindən istifadə etməklə hazırlanmışdır. Qiymətləndirmə prinsipləri aşağıdakı uçot qaydalarında daha dolğun təsvir edilir.

### 4.2. Hazırlığın əsasları

Bu konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanmasında tətbiq edilən mühasibat uçotu siyasətləri, qeyd 3.1-də təsvir olunan uçot Siyasətindəki dəyişikliklər istisna olmaqla, 31 dekabr 2024-cü il tarixində başa çatan il üzrə bu konsolidasiya edilmiş maliyyə hesabatlarında tətbiq edilən siyasətlərə uyğun gəlir.

Konsolidə edilmiş maliyyə hesabatlarının MHBS-a uyğun hazırlanması rəhbərlikdən mühasibat uçotunun prinsiplərinin tətbiqinə, habelə aktivlərin, öhdəliklərin, gəlir və xərclərin hesabatlarda əks etdirilən məbləğlərinə təsir göstərən mülahizələr, qiymətləndirmələr və fərziyyələr irəli sürməyi tələb edir. Faktiki nəticələr qiymətləndirmələrdən fərqli ola bilər. Qiymətləndirmələr və onların əsasını təşkil edən fərziyyələr davamlı olaraq təkrar nəzərdən keçirilir. Mühasibat hesablamalarına düzəlişlər hesablamanın nəzərdən keçirildiyi dövr və təsir altında qala biləcək gələcək dövrlər üçün qəbul edilir. Uçot siyasətlərinin tətbiqi zamanı əhəmiyyətli qiymətləndirmə qeyri-müəyyənliyi sahələri və rəhbərliyin əsas mülahizələri, habelə konsolidə edilmiş maliyyə hesabatlarında tanınmış məbləğlərə ən əhəmiyyətli təsir göstərən qiymətləndirmə qeyri-müəyyənlikləri və əsas mülahizələrdə baş verən dəyişikliklər barədə məlumatlar müvafiq olaraq Qeyd 4.22 və Qeyd 4.23-də açıqlanmışdır. Qrup maliyyə vəziyyəti haqqında hesabatını likvidlik ardıcıllığı ilə geniş şəkildə təqdim edir. Konsolidə olunmuş maliyyə vəziyyəti haqqında hesabatın verilməsi tarixindən sonra 12 ay ərzində (cari) və 12 aydan çox müddət (uzun-müddətli) ərzində əvəzləşdiriləcək və ya ödəniləcək məbləğlər üzrə təhlili 30 saylı qeyddə göstərilir. Maliyyə aktivləri və maliyyə öhdəlikləri əvəzləşdirilir və xalis məbləğ yalnız uçotda tanınmış məbləğlərin əvəzləşdirilməsi üçün qanuni hüquq mövcud olduqda və xalis əsaslarla hesablaşmaq və ya eyni vaxtda aktivləri tanımaq və öhdəliyi ödəmək niyyəti varsa konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatda bildirilir. Gəlir və xərclər, hər hansı bir mühasibat standartı və ya şərhi tərəfindən tələb olunmadıqda və ya icazə verilmədikdə və Qrupun mühasibat siyasətində xüsusi olaraq açıqlanmadığı təqdirdə, konsolidə edilmiş mənfəət və zərər hesabatında əvəzləşdirilmir.

### 4.3. Konsolidasiyanın əsasları

Bu konsolidə edilmiş maliyyə hesabatlarına 31 dekabr 2025-ci il tarixinə ana şirkət və onun törəmə şirkəti haqqında məlumatlar daxildir. Şirkət aşağıdakı şərtlər mövcud olduqda investisiya obyekti üzərində nəzarəti həyata keçirir:

- investisiya obyekti üzərində səlahiyyətə malik olduqda
- investisiya obyektində iştirakı nəticəsində dəyişkən gəlirlərə məruz qaldıqda və ya bu gəlirlər üzərində hüquqlara malik olduqda; və
- səlahiyyətindən istifadə etməklə həmin gəlirlərə təsir göstərmək imkanına malik olduqda

Zəruri hallarda, törəmə müəssisələrin maliyyə hesabatları Qrupun digər üzvləri tərəfindən tətbiq edilən uçot siyasətlərinə uyğunlaşdırılması məqsədilə müvafiq düzəlişlərə məruz qalır. Konsolidasiya sətri-sətri (line-by-line) əsasda həyata keçirilir və bütün qrupdaxili əməliyyatlar, qalqlar, gəlir və xərclər tam şəkildə eliminasya edilir.

## 4. Əhəmiyyətli Uçot Siyasətlərinin İcmalı

### 4.4. Xarici valyuta qalıqlarının çevrilməsi

Qrupun hər fərdi müəssisəsinin maliyyə hesabatları hazırlanarkən, müəssisənin funksional valyutasından fərqli valyutalarda aparılan əməliyyatlar (xarici valyuta əməliyyatları) əməliyyatların baş verdiyi tarixlərdə qüvvədə olan mübadilə məzənnələri ilə tanınır. Hər bir hesabat dövrünün sonunda xarici valyutada ifadə olunmuş monetar maddələr həmin tarixdə qüvvədə olan məzənnələr əsasında yenidən qiymətləndirilir. Xarici valyutada ədalətli dəyər ilə uçota alınmış qeyri-monetar müddəalarin valyuta mövqeyi ədalətli dəyərin müəyyənləşdirildiyi tarixdə qüvvədə olan məzənnələrlə yenidən qiymətləndirilir. İlkin dəyərlə xarici valyutada ölçülmüş qeyri-monetar müddəaların valyuta mövqeyi təkrar qiymətləndirilir.

Təqdimat valyutası Azərbaycan Manatı "AZN" - dir. Konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması zamanı Qrup tərəfindən istifadə edilən hesabat tarixinə valyuta məzənnələri aşağıdakı kimi olmuşdur:

| | **31 dekabr 2025-ci il** | 31 dekabr 2024-cü il |
|---|---|---|
| 1 ABŞ dolları/AZN | **1.7000** | 1.7000 |
| 1 Avro/AZN | **2.0022** | 1.7724 |
| 1 İngilis funt serlinqi/AZN | **2.2970** | 2.1382 |
| 100 Rusiya rublu/AZN | **2.1715** | 1.6300 |

2024-cü ildən etibarən, Mərkəzi Bank rublun məzənnəsini 1 manat üçün 100 rubl əsasında təqdim etməyə başlayıb.

### 4.5. Maliyyə alətləri

**Tanınma,ilkin qiymətləndirmə və uçotdan silmə**

Konsolidə edilmiş maliyyə hesabatında maliyyə aktivləri və maliyyə öhdəlikləri Qrupun maliyyə alətinin müqavilə müddəaları üzrə tərəfə çevrildiyi halda tanınır. Maliyyə aktiv və öhdəliklərinin adi qaydada alınması və satışı hesablaşma tarixi üzrə uçot metodu əsasında tanınır.
Maliyyə aktivləri və maliyyə öhdəlikləri ilkin tanınma zamanı ədalətli dəyərlə ölçülür. Maliyyə aktivləri və maliyyə öhdəliklərinin əldə edilməsi və ya buraxılması ilə birbaşa əlaqəli olan əməliyyat xərcləri (mənfəət və ya zərər vasitəsilə ədalətli dəyər üzrə ölçülən maliyyə aktivləri və maliyyə öhdəlikləri istisna olmaqla) ilkin tanınma zamanı müvafiq olaraq maliyyə aktivlərinin və ya maliyyə öhdəliklərinin ədalətli dəyərinə əlavə edilir və ya həmin dəyərdən çıxılır. Mənfəət və ya zərər vasitəsilə ədalətli dəyər üzrə ölçülən maliyyə aktivlərinin və maliyyə öhdəliklərinin əldə edilməsi ilə birbaşa əlaqəli olan əməliyyat xərcləri isə dərhal mənfəət və ya zərər haqqında hesabatda tanınır.
Maliyyə aktivləri maliyyə aktivi ilə bağlı pul vəsaitlərinin hərəkəti üzrə müqavilə hüquqlarının müddəti bitdikdə və ya maliyyə aktivi və bütün əhəmiyyətli risklər və faydalar ötürüldükdə uçotdan silinir.

Maliyyə öhdəliyi ödənildiyi, dayandırıldığı, ləğv edildiyi ya da müddəti bitdiyi halda uçotdan silinir.

**Təsnifat və qiymətləndirmə**

**Maliyyə aktivləri**

İlkin tanınmada, maliyyə aktivi, amortizasiya edilmiş dəyərlə, digər məcmu gəlir vasitəsilə ədalətli dəyər (SMGƏD) və və ya mənfəət və ya zərər vasitəsilə ədalətli dəyər (MZ(H)ƏD) qiymətləndirildiyi kimi təsnifləşdirilir.

Maliyyə aktivi, aşağıda göstərilən hər iki şərtə cavab verdikdə və MZ(H)ƏD -də göstərilmirsə, amortizasiya edilmiş dəyərlə ölçülür.

- aktivin məqsədi müqavilə əsasında pul vəsaitlərinin hərəkətini toplamaq üçün aktivləri saxlamağı nəzərdə tutan bir biznes modelində saxlanıldıqda; və
- maliyyə aktivinin müqavilə şərtləri müəyyən edilmiş tarixlərdə yalnız əsas borc məbləği və həmin əsas borc məbləği üzrə faiz ödənişlərindən ibarət olan pul vəsaitləri axınlarının yaranmasına səbəb olduqda..

**4. Əhəmiyyətli Uçot Siyasətlərinin İcmalı**

**4.5. Maliyyə alətləri (davamı)**

Borc aləti yalnız aşağıda qeyd olunan hər iki şərtə cavab verdikdə və MZ(H)ƏD -də göstərilmədikdə digər məcmu gəlir vasitəsilə ədalətli dəyər üzrə (SMGƏD) ölçülür:

- aktivin məqsədi həm müqaviləli pul vəsaitlərinin hərəkəti toplanması, həm də maliyyə aktivlərinin satışı ilə əldə edilən biznes modeli çərçivəsində keçirilir; və
- maliyyə aktivinin müqavilə şərtləri müəyyən edilmiş tarixlərdə yalnız əsas məbləğin və əsas məbləğə hesablanan faizlərin ödənişlərindən ibarət pul axınları yaradır.

Ticarət üçün tutulmayan kapital investisiyalarının ilkin tanınması zamanı sonrakı dövrlərdə ədalətli dəyərdə baş verən dəyişiklikləri geri dönməz şəkildə digər məcmu gəlirdə təqdim etməyi seçə bilər. Bu seçim hər bir investisiya üzrə ayrıca əsasda həyata keçirilir. Bütün digər maliyyə aktivləri MZ(H)ƏD -də ölçülmüş kimi təsnifləşdirilir.

Əlavə olaraq, ilkin tanınma zamanı Qrup amortizə edilmiş maya dəyəri və ya digər məcmu gəlir vasitəsilə ədalətli dəyər (SMGƏD) üzrə ölçülmə tələblərinə cavab verən maliyyə aktivini, həmin aktivin mənfəət və ya zərər vasitəsilə ədalətli dəyər (MZ(H)ƏD) üzrə ölçülməsi mühasibat uyğunsuzluğunu aradan qaldırdığı və ya əhəmiyyətli dərəcədə azaltdığı hallarda, qətiyyətlə SMGƏD üzrə ölçülən kimi təyin edə bilər.

**Biznes modelinin qiymətləndirilməsi:**

Qrup aktivlərin saxlanıldığı biznes modelinin məqsədini portfel səviyyəsində qiymətləndirir, çünki bu yanaşma biznesin idarə olunma formasını və rəhbərliyə təqdim edilən məlumatları ən düzgün şəkildə əks etdirir.

Qiymətləndirmə zamanı nəzərə alınan məlumatlara aşağıdakılar daxildir:

- portfel üzrə müəyyən edilmiş siyasətlər və məqsədlər, habelə həmin siyasətlərin praktikada necə tətbiq edildiyi; xüsusilə, rəhbərliyin strategiyasının müqavilə üzrə faiz gəlirlərinin əldə edilməsinə yönəldilməsi, müəyyən faiz dərəcəsi profilinin saxlanılması, maliyyə aktivlərinin müddətinin bu aktivləri maliyyələşdirən öhdəliklərin müddəti ilə uyğunlaşdırılması və ya aktivlərin satışı yolu ilə pul vəsaitləri axınlarının həyata keçirilməsinə yönəlməsi;
- Portfelin fəaliyyətinin necə qiymətləndirildiyi və Qrupun rəhbərliyinə necə təqdim edildiyi;
- Biznes modelinin (və həmin biznes modeli çərçivəsində saxlanılan maliyyə aktivlərinin) fəaliyyətinə təsir edən risklər və bu risklərin necə idarə edildiyi;
- Biznes menecerlərinə necə kompensasiya ödənilir - məsələn, kompensasiyanın idarə olunan aktivlərin ədalətli dəyərinə və ya toplanan müqavilə üzrə pul vəsaitlərinin hərəkətinə əsaslanıb-əsaslanmadığı; və
- Əvvəlki dövrlərdə həyata keçirilmiş satışların tezliyi, həcmi və vaxtı, bu satışların səbəbləri və gələcəkdə satış fəaliyyətləri ilə bağlı gözləntilər. Bununla belə, satış fəaliyyəti ilə bağlı məlumatlar ayrıca nəzərdən keçirilmir, əksinə, Qrupun maliyyə aktivlərinin idarə edilməsi üzrə müəyyən etdiyi ümumi məqsədlərin necə həyata keçirildiyi və pul vəsaitləri axınlarının necə realizə edildiyi barədə ümumi qiymətləndirmənin bir hissəsi kimi nəzərə alınır.

**Müqavilə üzrə pul vəsaitləri axınlarının yalnız əsas borc və faiz ödənişlərindən ibarət olub-olmamasının qiymətləndirilməsi**

Bu qiymətləndirmə məqsədləri üçün "əsas borc" maliyyə aktivinin ilkin tanınma tarixindəki ədalətli dəyəri kimi müəyyən edilir. "Faiz" isə müəyyən dövr ərzində dövriyyədə olan əsas borc məbləği üzrə pul vəsaitlərinin zaman dəyərinə, kredit riskinə, habelə digər əsas maliyyələşdirmə risk və xərclərinə (məsələn, likvidlik riski və inzibati xərclər) görə kompensasiya, eləcə də mənfəət marjasını ifadə edir.

Müqavilə üzrə pul vəsaitləri axınlarının yalnız əsas borc və faiz ödənişlərindən ibarət olub-olmadığını qiymətləndirərkən Qrup maliyyə alətinin müqavilə şərtlərini nəzərə alır. Bu qiymətləndirmə maliyyə aktivinin müqavilə şərtlərində pul vəsaitləri axınlarının məbləğini və ya vaxtını dəyişə biləcək və bunun nəticəsində qeyd olunan şərtlərə cavab verməməsinə səbəb ola biləcək hər hansı müddəanın mövcudluğunun təhlilini də əhatə edir.

**4. Əhəmiyyətli Uçot Siyasətlərinin İcmalı**

**4.5. Maliyyə alətləri (davamı)**

Qiymətləndirmə aparılarkən Qrup aşağıdakı amilləri nəzərə alır:

- pul vəsaitlərinin hərəkətinin məbləğini və vaxtı dəyişdirən şərti hadisələr;
- borclanma xüsusiyyətləri;
- vaxtından əvvəl ödəniş və müddətin uzadılması ilə bağlı şərtlər;
- qrupun müəyyən edilmiş aktivlərdən pul vəsaitlərinin hərəkəti ilə bağlı tələbini məhdudlaşdıran şərtlər (məsələn, istifadə edilməmiş aktiv üzrə razılaşmalar); və
- pul vəsaitlərinin zaman dəyərinə görə kompensasiyanı dəyişdirən xüsusiyyətlər, məsələn, faiz dərəcəsinin dövri olaraq yenidən müəyyən edilməsi.

**Yenidən təsnifat:**

Maliyyə aktivləri, Qrupun maliyyə aktivlərinin idarə edilməsi üçün biznes modelini dəyişdirməsindən sonrakı dövr istisna olmaqla, ilkin tanınmasından sonra yenidən təsnif edilmir.

**Dəyərdən düşmə**

Qrup, amortizasiya olunan dəyər əsasında ölçülən maliyyə aktivləri və verilmiş kredit öhdəlikləri və buraxılmış maliyyə zəmanətləri üzrə gözlənilən kredit zərərləri (GKZ) hesablayaraq ehtiyat tanımaqdadır.

Dəyərsizləşmə zərərləri mənfəət və zərər haqqında hesabatda tanınır. Qrup dəyərsizləşmə ehtiyatını ömürlük ECL məbləği səviyyəsində ölçür, lakin ilkin tanınmadan sonra kredit riskində əhəmiyyətli artım baş verməmiş maliyyə alətləri üzrə 12 aylıq ECL ölçülür. 12 aylıq ECL hesabat tarixindən sonrakı 12 ay ərzində maliyyə aləti üzrə baş verə biləcək defolt hadisələrindən irəli gələn gözlənilən kredit zərərlərinin hissəsini ifadə edir. Hər bir maliyyə aktivinin mərhələsi Qrupun İdarə heyəti tərəfindən təsdiq edilmiş siyasətə uyğun olaraq müəyyən edilir.

**GKZ -nin ölçülməsi:**

GKZ ehtimal ağırlıqlı hesablanmış qiymətləndirməsidir. Bu aşağıdakı kimi ölçülür:

- Hesabat tarixində dəyərsizləşməyən maliyyə aktivləri: bütün pul vəsaitlərinin çatışmazlıqlarının cari dəyəri (yəni müqaviləyə uyğun olaraq müəssisəyə aid olan pul vəsaitlərinin hərəkəti və Qrupun əldə etməyi planlaşdırdığı pul vəsaitlərinin hərəkəti arasındakı fərq).
- Hesabat tarixində kredit itkisinə məruz qalan maliyyə aktivləri: məcmu balans dəyəri və təxmin edilən gələcək pul vəsaitlərinin hərəkəti indiki dəyəri arasındakı fərq;
- İstifadə olunmamış maliyyə öhdəlikləri: öhdəlik istifadə edildiyi halda Qrupun almaq hüququna malik olduğu müqavilə üzrə pul vəsaitləri axınları ilə Qrupun əldə etməyi gözlədiyi pul vəsaitləri axınları arasındakı fərqin cari dəyəri;
- Maliyyə zəmanət müqavilələri: zəmanət alan tərəfə ödənilməsi gözlənilən məbləğlərdən Qrupun geri əldə etməyi gözlədiyi məbləğlər çıxılmaqla hesablanan məbləğ.

**Yenidən qurulan maliyyə aktivləri**

Borcalanın maliyyə çətinlikləri üzündən bir maliyyə aktivinin şərtləri yenidən müzakirə olunduqda və ya dəyişdirilmişsə və ya mövcud maliyyə aktivi yeni bir şəkildə əvəz olunarsa, maliyyə aktivinin tanınmasının dayandırılması və yaxud GKZ in qiymətləndirilməsi aşağıdakı şərtlər altında baş verir:

- əgər gözlənilən restrukturizasiya mövcud maliyyə aktivinin tanınmadan çıxarılmasına səbəb olmursa, dəyişdirilmiş maliyyə aktivindən irəli gələn gözlənilən pul vəsaitləri axınları mövcud maliyyə aktivindən yaranan vəsait çatışmazlıqlarının hesablanmasına daxil edilir;
- Əgər gözlənilən yenidənqurma mövcud aktivin tanınmasının dayandırılmasına səbəb olarsa, yeni aktivin gözlənilən ədalətli dəyəri onun tanınması dayandırıldığı tarixdə mövcud maliyyə aktivindən son nağd pul axını kimi qəbul edilir. Bu məbləğ, mövcud maliyyə aktivi üzrə pul çatışmazlığının hesablanmasına daxil edilir. Nağd pul çatışmazlığı, mövcud maliyyə aktivinin orijinal effektiv faiz dərəcəsini istifadə edərək, hesabat tarixinin gözlənilən tarixdən gözlənilən tarixindən endirilir.

## 4. Əhəmiyyətli Uçot Siyasətlərinin İcmalı

### 4.5 Maliyyə alətləri (davamı)

**Kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri:**

Hər hesabat tarixində, SMGƏD -də daşınan amortizasiya edilmiş dəyərdə və maliyyə aktivlərində əks etdirilən maliyyə aktivləri kredit itkisinə məruz qaldıqlarını qiymətləndirir. Maliyyə aktivinin təxmin edilən gələcək pul vəsaitlərinin hərəkətinə zərərli təsir göstərən bir və ya daha çox hadisə baş verdikdə maliyyə aktivi "kredit itkisinə məruz qalmışdır".

Maliyyə aktivinin kredit itkisinə məruz qaldığı sübutlar aşağıdakı müşahidə olunan məlumatları ehtiva edir:

- Borcalanın və ya emitentin əhəmiyyətli maliyyə çətinlikləri;
Bank həmçinin, Bazel kimi tanınmış Kapitalın Ölçülməsi və Kapital Standartları üzrə Beynəlxalq Konvnsiyada (1998-ci ilin aprel ayında qəbul edilmiş düzəlişlərlə) və bazar risklərinin daxil edilməsi üzrə Kapital Sazişinə Düzəlişdə (2007-ci ilin noyabr ayında qəbul edilmiş düzəlişlərlə) müəyyən edildiyi kimi, Bazel Sazişinə uyğun olaraq hesablanmış kapital adekvatlığı səviyyələrinə nəzarət edir.

## 28 Kapitalin idarə olunması (davamı)

Aşağıdakı cədvəldə 31 dekabr tarixinə Bazel Sazişinin tələblərinə uyğun olaraq hesablanmış kapital mövqeyinin tərkibi təqdim olunur:

| | 2025 AZN | 2024 AZN |
|---|---|---|
| **1-ci dərəcəli kapital** | | |
| Nizamnamə kapitalı | **60,000,000** | 60,000,000 |
| Bölüşdürülməmiş mənfəət | **60,827,442** | 54,207,863 |
| Xəzinə səhmləri | **(344,900)** | (344,900) |
| **Cəmi 1-ci dərəcəli kapital** | **120,482,542** | 113,862,963 |
| **1-ci dərəcəli kapitaldan tutulmalar** | | |
| Tərixə salınmış vergi aktivləri | **(804,899)** | (510,591) |
| Qeyri-maddi aktivlər | **(1,158,245)** | (1,435,567) |
| **Tutulmalardan sonra cəmi 1-ci dərəcəli kapital** | **118,519,398** | 111,916,805 |
| | | |
| **Risk dərəcəsi üzrə ölçülmüş aktivlər** | **563,307,795** | 502,556,652 |
| **Cəmi risk dərəcəsi üzrə ölçülmüş aktivlər** | **563,307,795** | 502,556,652 |
| **Cəmi kapitalın risk dərəcəsi üzrə ölçülmüş aktivlərə nisbəti** | **21.04%** | 22.27% |

Risk dərəcəsi üzrə ölçülmüş aktivlər hər bir aktiv və kontragentlə bağlı kredit, bazar və digər risklərin xarakterinə uyğun olaraq təsnifləşdirilmiş və onların hesablanmasını əks edən risk dərəcələri sisteminə əsasən qiymətləndirilir. Bu zaman müvafiq girov və ya zəmanətlər nəzərə alınır. Eyni prosedur, potensial itkilərin gözlənilməyən xarakterini əks etmək üçün qəbul edilən bəzi düzəlişlərlə, uçota alınmamış müqavilə öhdəliklərinə də tətbiq olunur. Bank üzərinə götürdüyü öhdəliklərlə əlaqədar olaraq Bazel Sazişinə uyğun olaraq hesablanmış minimal kapital adekvatlığı tələblərinə cavab verir.

**Cəmi normativ kapitalla MHBS-a uyğun kapitalın üzləşdirilməsi**

Aşağıdakı məlumat Bankın 31 dekabr 2025-ci il tarixində tamamlanan il üzrə maliyyə hesabatlarının istifadəçilərinə əlavə məlumat vermək niyyəti daşıyır və Maliyyə Hesabatının Beynəlxalq Standartları (MHBS) əsasında tələb edilmir. Aşağıdakı cədvəl 31 dekabr 2025-ci il tarixinə Bankın MHBS-a uyğun hazırlanmış maliyyə hesabatlarında və Azərbaycan Respublikası Mərkəzi Bankının qayda və qanunlarına əsasən müəyyən edilmiş cəmi normativ kapitalda ("normativ kapital") xalis aktivlərin tərkibində olan fərqləri əhatə edir.

| | 2025 AZN | 2024 AZN |
|---|---|---|
| **Cəmi normativ bölüşdürülməmiş mənfəət** | **62,542,613** | 55,830,314 |
| | | |
| **Cəmi normativ bölüşdürülməmiş mənfəət və MHBS kapitalı arasında fərqlər:** | | |
| **Keçmiş illərin düzəlişləri** | **(1,622,451)** | (1,682,895) |
| Kreditlər, avanslar və qarantiya təminatı (GKZ düzəlişi) | **(440,980)** | 182,099 |
| Haqq və komissiya gəlirləri | **(27,527)** | 18,270 |
| Əməliyyat xərcləri | **369,495** | (46,932) |
| Digər gəlirlər (xərclər) | **-** | 2,500 |
| Təxirə salınmış vergi (xərci)/gəliri | **(2,308)** | (102,104) |
| Mənfəət verigisi | **-** | (2,500) |
| Törəmə müəssisənin bölüşdürülməmiş qazancı (qrup hesabatı) | **8,600** | 9,111 |
| **MHBS-a uyğun xalis bölüşdürülməmiş mənfəət** | **60,827,442** | 54,207,863 |

## 29 Risklərin idarə edilməsi siyasəti

Qrupun fəaliyyəti üçün risklərin idarə edilməsi Qrup əməliyyatlarının mühüm elementini təşkil edir. Qrupun əməliyyatlarına təsir göstərəcək əsas risklər aşağıdakılardan ibarətdir:

- Kredit riski;
- Likvidlik riski;
- Bazar riski.

Qrupun rəhbərliyi anlayır ki, səmərəli və effektiv risklərin idarə olunması sisteminə malik olmaq vacib şərtdir. Bu məqsədlə, Qrup rəhbərliyi risklərin idarə olunması qrupu yaratmışdır. Bu qrupun əsas məqsədi Qrupu ehtimal edilən risklərə qarşı qorumaq və ona qarşıda qoyulan hədəflərə çatmaq imkanı yaratmaqdır. Risklərin idarə olunması qrupu vasitəsilə Qrupun rəhbərliyi, aşağıdakı risklərin idarə olulnmasına nəzarət edir:

### Kredit riski

Bir tərəfin maliyyə aləti üzrə öhdəliklərini yerinə yetirə bilmədiyi zaman və maliyyə zərərləri ilə nəticələnə bilən hallarda Qrup kredit riskinə məruz qalır. Kredit riskinə məruz qalma halları Qrupun verilmiş kreditlər və digər əməliyyatlar nəticəsində maliyyə aktivlərini istifadə edən zaman yaranır.

Riskin idarə edilməsi və ona nəzarət müəyyən olunmuş səlahiyyətlər çərçivəsində Qrupun Müşahidə Şurası və İdarə Heyəti tərəfindən yerinə yetirilir. Riskin gündəlik idarə edilməsi Kredit Departamentinin rəhbərliyi, Risk, Daxili Nəzarət və Komplayens Departamenti və kredit bölmələri tərəfindən həyata keçirilir.

Qrup bir borcalan və ya bir qrup borcalanlar ilə bağlı və sənaye seqmentləri üzrə qəbul edilmiş risk məbləğlərini günlük və periodik əsasda izləyərək üzərinə götürdüyü kredit risklərini səviyyələrə bölərək idarə etməkdədir. Müşahidə Şurası və İdarə Heyəti hər borcalan tərəfindən və məhsul üzrə (sənaye sahəsi) yaranan kredit riski dərəcəsi üçün limitlərə nəzarət edir. Banklar və brokerlər də daxil olmaqla hər hansı bir borcalan üzrə təsir Müşahidə Şurası və İdarə Heyəti tərəfindən qoyulan təsirləri əhatə edən sub-limitlərlə məhdudlaşdırılır. Məhdudiyyətlər üzrə faktiki təsirin gündəlik monitorinqi aparılır.

Müvafiq hallarda və ümumiyyətlə bir çox kredit ayırmalarında Qrup girov və korporativ təminatlar və şəxsi zəmanətlər götürür ki, bunların cüzi hissəsi şəxsi kreditlərdir və onlar üzrə belə şərtlər qəbul edilmir. Belə risklər davamlı şəkildə tənzimlənir və ildə bir dəfə və ya daha tez-tez yoxlanılır.

Kreditin uzadılması öhdəlikləri kreditin istifadə olunmamış hissələrinin kreditlər, zəmanətlər və ya akkreditiv şəkildə ifadə olunmasıdır. Şərti maliyyə alətlərinin kredit riski qarşı tərəfin müqavilənin şərtlərini yerinə yetirə bilməməsindən yaranan zərərlər kimi müəyyən olunur. Kreditin uzadılması öhdəliklərinin kredit riski ilə bağlı Qrup ümumi istifadə olunmamış öhdəliklərin məbləği həcmində itkilərə məruz qala bilər. Bununla belə, itkinin təxmini miqdarı ümumi istifadə olunmamış kredit üzrə öhdəlikdən az olur, çünki kredit məbləğinin artırılması bir çox hallarda müştərinin müəyyən kredit standartlarına cavab verməsindən asılı olur. Bank şərti öhdəliklərin müddətinin başa çatması tarixlərinə nəzarət edir, çünki uzunmüddətli öhdəliklər ümumilikdə qısamüddətli öhdəliklərə nisbətən daha yüksək kredit riski daşıyır.

### Kredit riskinə maksimal məruzqalma həddi

Qrupun kredit riskinə məruzqalma həddi əhəmiyyətli dərəcədə dəyişir və həm fərdi risklərdən, həm də ümumi bazar iqtisadiyyatı risklərindən asılıdır.

Aşağıdakı cədvəldə balans hesabatı, eləcə də balansdan kənar hesabatda əks etdirilən maliyyə aktivləri ilə bağlı kredit riskinə maksimal məruzqalma həddi göstərilir. Konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatda əks etdirilən maliyyə aktivləri halında kredit riskinə maksimal məruzqalma həddi həmin aktivlərin hər hansı əvəzləşdirmədən və girov sövdələşməsindən qabaq balans dəyərinə bərabərdir.

Qrupun şərti öhdəlikləri və kreditin ayrılması ilə bağlı öhdəlik üzrə kredit riskinə maksimal məruzqalma həddi isə, qarşı tərəfin öhdəliklərini yerinə yetirmədiyi təqdirdə həmin alətlərin müqavilə üzrə məbləğlərindən ibarət olur ki, bu halda da qarşı iddialar, girov və təminatlar dəyərini itirir.

## 29 Risklərin idarə edilməsi siyasəti (davamı)

| 31 dekabr 2025-ci il | Qeydlər | Maksimal risk AZN | Əvəzləşdirmə/ depozitlər AZN | Əvəzləşdirmədən sonra xalis risk AZN | Təmin edilmiş kreditlər AZN | Xalis risk AZN |
|---|---|---|---|---|---|---|
| Azərbaycan Respublikasının Mərkəzi Bankında yerəşdirilmiş vəsaitlər | 5 | **39,582,207** | **-** | **39,582,207** | **-** | **39,582,207** |
| Banklardan alınacaq vəsaitlər | 6 | **413,409,804** | **-** | **413,409,804** | **-** | **413,409,804** |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 7 | **334,656,978** | **(233,344,997)** | **101,311,981** | **(90,553,653)** | **10,758,328** |
| Digər məcmu gəlirdə ədalətli dəyərində tanınan maliyyə aktivləri | 8 | **1,162,900** | **-** | **1,162,900** | | **1,162,900** |
| Digər maliyyə aktivləri | 12 | **11,525,573** | **-** | **11,525,573** | | **11,525,573** |
| Zəmanətlər və oxşar öhdəliklər | 25 | **45,936,226** | **(7,689,295)** | **38,246,931** | **(38,246,931)** | **-** |
| Kreditlər və istifadə edilməmiş kredit xətləri üzrə öhdəliklər | 25 | **28,522,339** | **-** | **28,522,339** | **(28,522,339)** | **-** |
| | | **874,796,027** | **(241,034,292)** | **633,761,735** | **(157,322,923)** | **476,438,812** |
| **31 dekabr 2024-cü il** | | | | | | |
| Pul vəsaitləri və Azərbaycan Respublikasının Mərkəzi Bankında yerəşdirilmiş vəsaitlər | 5 | 27,684,949 | - | 27,684,949 | - | 27,684,949 |
| Banklardan alınacaq vəsaitlər | 6 | 424,357,816 | - | 424,357,816 | - | 424,357,816 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 7 | 290,713,423 | (229,503,626) | 61,209,797 | (42,773,716) | 18,436,081 |
| Digər məcmu gəlirdə ədalətli dəyərində tanınan maliyyə aktivləri | 8 | 1,621,651 | - | 1,621,651 | - | 1,621,651 |
| Digər maliyyə aktivləri | 12 | 9,406,200 | - | 9,406,200 | - | 9,406,200 |
| Zəmanətlər və oxşar öhdəliklər | 25 | 36,851,801 | (21,716,048) | 15,135,753 | (15,135,753) | - |
| Kreditlər və istifadə edilməmiş kredit xətləri üzrə öhdəliklər | 25 | 24,363,437 | - | 24,363,437 | (24,363,437) | - |
| | | 814,999,277 | (251,219,674) | 563,779,603 | (82,272,906) | 481,506,697 |

## 29 Risklərin idarə edilməsi siyasəti (davamı)

### Balansdan kənar risk

Qrup balans uçotu halında olduğu kimi, əsas etibarlı ilə, balansdan kənar müddəalar halında da risklərin idarəedilməsi üzrə eyni siyasətləri tətbiq edir. Kreditlərin ayrılmasına öhdəliklər halında isə, həmçinin kredit və avanslar halında olduğu kimi, müştərilər və qarşı tərəflər ilə bağlı eyni kredit riskinin idarəedilməsi siyasətləri tətbiq olunur. Girov qarşı tərəfin imkanları və əməliyyatın mahiyyətindən asılı olaraq tələb edilə bilər.

### Coğrafi konsentrasiya

Riskləri İdarəetmə Komitəsi həmçinin qanunvericilik və tənzimləmə sahəsindəki risklərin idarə edilməsinə və bu risklərin Qrupun fəaliyyətinə təsirinə nəzarət edir. Bu nəzarət mexanizmi Qrupa Azərbaycan Respublikasındakı investisiya mühitinin dəyişməsindən yaranan ehtimal edilən zərərləri minimum həddə salmağa şərait yaradır.

Qrupun konsolidə edilmiş aktiv və öhdəliklərin coğrafi konsentrasiyası aşağıdakı cədvəldə göstərilir:

| 31 dekabr 2025-ci il | Qeydlər | Azərbaycan Respublikası | İƏİT ölkələri | Qeyri İƏİT ölkələri | 31 dekabr 2025-ci il tarixinə |
|---|---|---|---|---|---|
| **Qeyri-törəmə maliyyə aktivləri** | | **AZN** | **AZN** | **AZN** | **AZN** |
| Pul vəsaitləri və Azərbaycan Resplikasının Mərkəzi Bankında yerləşdirilmiş vəsaitlər | 5 | 53,712,340 | - | - | 53,712,340 |
| Banklardan alınacaq vəsaitlər | 6 | 181,838,896 | 221,490,762 | 10,080,146 | 413,409,804 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 7 | 334,656,978 | - | - | 334,656,978 |
| Digər məcmu gəlirdə ədalətli dəyərində tanınan maliyyə aktivləri | 8 | 1,162,900 | - | - | 1,162,900 |
| Digər maliyyə aktivləri | 12 | 11,525,573 | - | - | 11,525,573 |
| | | 582,896,687 | 221,490,762 | 10,080,146 | 814,467,595 |
| **Qeyri-törəmə maliyyə öhdəlikləri** | | | | | |
| Banklar və dövlət qurumlarına qarşı öhdəlik | 13 | 44,804,845 | 163,689,600 | - | 208,494,445 |
| Müştərilər tərəfindən yerləşdirilmiş depozitlər | 14 | 479,805,827 | - | - | 479,805,827 |
| Digər maliyyə öhdəlikləri | 15 | 7,846,702 | - | - | 7,846,702 |
| | | 532,457,374 | 163,689,600 | - | 696,146,974 |
| **Qeyri-törəmə maliyyə alətləri üzrə xalis mövqe** | | 50,439,313 | 57,801,162 | 10,080,146 | 118,320,621 |

**29 Risklərin idarə edilməsi siyasəti (davamı)**

**Coğrafi konsentrasiya**

| **31 dekabr 2024-cü il** | Qeydlər | Azərbaycan Respublikası | İƏİT ölkələri | Qeyri-İƏİT ölkələri | 31 dekabr 2024-cü il tarixinə |
|---|---|---|---|---|---|
| **Qeyri-törəmə maliyyə aktivləri** | | **AZN** | **AZN** | **AZN** | **AZN** |
| Pul vəsaitləri və Azərbaycan Resplikasının Mərkəzi Bankında yerləşdirilmiş vəsaitlər | 5 | 41,967,963 | - | - | 41,967,963 |
| Banklardan alınacaq vəsaitlər | 6 | 190,585,849 | 190,816,379 | 42,955,588 | 424,357,816 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 7 | 290,713,423 | - | - | 290,713,423 |
| Digər məcmu gəlirdə ədalətli dəyərində tanınan maliyyə aktivləri | 8 | 1,621,651 | - | - | 1,621,651 |
| Digər maliyyə aktivləri | 12 | 9,406,200 | - | - | 9,406,200 |
| **Qeyri-törəmə maliyyə öhdəlikləri** | | 534,295,086 | 190,816,379 | 42,955,588 | 768,067,053 |
| Banklar və dövlət qurumlarına qarşı öhdəlik | 13 | 36,012,930 | 140,657,870 | - | 176,670,800 |
| Müştərilər tərəfindən yerləşdirilmiş depozitlər | 14 | 444,544,880 | - | 28,619,930 | 473,164,810 |
| Digər maliyyə öhdəlikləri | 15 | 7,802,463 | - | - | 7,802,463 |
| | | 488,360,273 | 140,657,870 | 28,619,930 | 657,638,073 |
| **Qeyri-törəmə maliyyə alətləri üzrə xalis mövqe** | | 45,934,813 | 50,158,509 | 14,335,658 | 110,428,980 |

Qrup heç bir derivativ əməliyyatlarla məşğul deyil.

**Girov**

Tələb olunan girovun məbləği və növü qarşı tərəf ilə bağlı kredit riskinin qiymətləndirilməsindən asılı olaraq müəyyənləşdiirlir. Girov növlərinin qəbul edilə bilməsi və qiymətləndirmə parametrlərinə dair qaydalar tətbiq olunur.

Qəbul edilən əsas girov növlərinə aşağıdakılar aiddir:

- Kommersiya kreditləri üçün daşınmaz və daşınan əmlak vasitələri, avadanlıqlara qarşı
- Ticarət kreditlərin verilməsi halında, yaşayış sahəsinin ipotekası üçün

Rəhbərlik girovun bazar dəyərini müşahidə altında saxlayır, baza sazişinə əsasən əlavə girov tələb edir, habelə dəyərsizləşmə zərəri üçün ehtiyatın müvafiq məbləğdə olduğunu təhlil etdiyi müddətdə aldığı girovun bazar qiymətlərinin monitorinqini aparır.

**Maliyyə aktivinin sinfinə görə kredit keyfiyyəti**

Qrup, beynəlxalq reytinq agentlikləri tərəfindən reytinq verilmədiyi çoxsaylı əməliyyatlara girir. Qrup qarşı tərəflərin beynəlxalq reytinq agentliklərinin təqdim etdiyi reytinq göstəriciləri ilə müqayisə oluna biləcək səviyyədə reytinq dərəcələrini müəyyən etməyə imkan yaradan daxili modellərini işləyib hazırlamışdır. Korporativ borcalanları qiymətləndirmək məqsədilə Qrupda borcalanlar müvafiq borcalan və zəmanət kateqoriyalarına aid edilməklə ödəniş qabiliyyətləri dərəcələndirilməkdədir.

**29 Risklərin idarə edilməsi siyasəti (davamı)ss**

**Maliyyə aktivinin sinfinə görə kredit keyfiyyəti (davamı)**

Bu metod borcalanın öhdəliklərini icra etmə dərəcəsini, eləcə də kredit üzrə girovun kifayətliliyini hesablamaq və təyin etmək/təsdiqləmək imkanını verir. Sistem borcalanın əsas fəaliyyət göstəricilərindən asılı laraq verilmiş standartın obyektivliyinin yetərli olmadığı təqdirdə mütəxəssis tərəfindən cüzi düzəliş ediləcəyi ehtimal olunmaqla keyfiyyət qiymətləndirilməsi modelinə əsaslanır.

Metod aşağıdakı meyarlar əsasında borcalanın müvafiq kateqoriya üzrə dərəcəsinin müəyyənləşdirilməsini nəzərdə tutur: borcalanın bazar göstəriciləri, qudvil, kredit tarixi, məlumatın şəffaflığı və mötəbərliyi, biznes fəaliyyəti və müəssisələrin fəaliyyət mühiti haqqında məlumat, Qrup və borcalan arasında münasibətlər, borcalanın maliyyə vəziyyəti, biznes fəaliyyəti və təqdim edilmiş girov. Maliyyə vəziyyəti və biznes fəaliyyəti ən vacib meyarlardır. Buna görə də keyfiyyət qiymətləndirilməsi modeli borcalanın və kreditin ümumi qiymətləndirilməsi üçün şərait yaradır.

Borcalanın keyfiyyət üzrə qiymətləndirilməsi modeli Qrupda kiçik və orta ölçülü müəssisələrə kreditlər ilə bağlı qiymətləndirmənin aparılması və belə kreditlərin ayrılmasına dair qərar verilməsi məqsədilə işlənib hazırlanmışdır. Keyfiyyət qiymətləndirilməsi modeli adi kredit məhsulları ilə əlaqədar olaraq hazırlanmış və borcalanların əsas fəaliyyət göstəricilərindən ibarətdir: maliyyə vəziyyəti, borcalanla münasibətlər, idarəetmə keyfiyyəti, məqsədyönümlü istifadə, yerləşmə, kredit tarixi, girov və sair.

Borcalanın parametrlərinə əsaslanan keyfiyyətin qiymətləndirilməsi kredit ilə bağlı qərar qəbul etmə prosesinin əsas amillərindən biridir.

Fərdi borcalanların qiymətləndirilməsi metodologiyası aşağıdakı meyarlara əsaslanır: təhsil, məşğulluq, maliyyə durumu, kredit tarixi, borcalanın sahib olduğu əmlak. Kreditin maksimal həddi əldə edilmiş məlumata əsasən hesablanır. Kreditin maksimal həddi borcalana borclanma əmsalı əsasında hesablanır.

Qrup daxili metodologiyalarını korporativ kreditlərə və fiziki şəxslərə verilən kredit qruplarına qarşı tətbiq edir. Keyfiyyətin qiymətləndirilməsi metodologiyaları müəyyən məhsullar üçün xüsusi olaraq hazırlanıb və kredit müddətinin müxtəlif mərhələlərində tətbiq olunur. Nəticə etibarı ilə isə maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabat üzrə müştərilərə verilmiş kreditlərin ödənilməmiş qalıqlarına uyğun gələn çarpaz məhsul keyfiyyətinin qiymətləndirilməsi ilə müqayisə aparılması mümkün olmur. Bu kimi bir çox müfəssəl məlumatlar təqdim olunmur.

Müştərilərə verilmiş kreditlərdən başqa digər maliyyə aktivləri onlara Fitch, Standard & Poor's və Moody's kimi beynəlxalq səviyyədə tanınmış agentliklər tərəfindən verilən cari kredit reytinqinə görə dərəcələrə bölünür. AAA mümkün ən yüksək reytinq dərəcəsi hesab edilir. İnvestisiya dərəcəli maliyyə aktivlərinin reytinqi AAA-dan BBB-ya kimi dəyişir. Reytinqi BBB-dan aşağı olan maliyyə aktivləri qeyri-investisiya dərəcəli aktiv kimi təsnifləşdirilir.

**Likvidlik riski**

Likvidlik riski ödənilməli olduğu dövrdə depozitlərin çıxarılması tələbi və maliyyə alətləri ilə bağlı digər maliyyə öhdəliklərinin qarşılanması üçün kifayət qədər vəsaitlərin mövcud olması ilə bağlı riskdir.

Xəzinədarlıq belə növ riskləri ödəniş müddətinin təhlili yolu ilə nəzarətdə saxlamaqla Bankın növbəti maliyyə ili üçün strategiyasını müəyyənləşdirir. Cari likvidlik onun saxlanılması və pul vəsaitləri axınının optimallaşdırılması üçün valyuta bazarında ticarət əməliyyatlarında iştirak edən Xəzinədarlıq departamenti tərəfindən idarə olunur.

Likvidlik riskini idarə etmək üçün Qrup aktivlər/öhdəliklərin idarə olunması prosesinin bir hissəsi olaraq müştərilər və bank əməliyyatları üzrə gözlənilən gələcək pul vəsaitləri axınlarının gündəlik monitorinqini həyata keçirir. İdarə heyəti depozitlərin çıxarılması tələbinin qarşılanması üçün ödənilmə müddəti çatmış vəsaitlər üzrə minimal məbləğ həddlərini və belə tələblərin gözlənilməz məbləğlərdə irəli sürüldüyü təqdirdə təmin edilməsi üçün istifadəyə hazır olmalı banklar arası və digər borc vəsaitlərinin minimal məbləğinə qarşı məhdudiyyətlər müəyyənləşdirir.

**29 Risklərin idarə edilməsi siyasəti (davamı)**

**Likvidlik riski**

Likvidlik riskinin təhlili aşağıdakı cədvəldə göstərilir. Aşağıdaki təqdimat Qrupun əsas idarəedici şəxsinə Qrupdaxilində təqdim olunmuş məlumatlara əsaslanır .

| | Qeydlər | 1 aya qədər AZN | 1 aydan 3 ayadək AZN | 3 aydan 1 ilədək AZN | 1 ildən 5 ilədək AZN | 5 ildən artıq AZN | Qeyri-müəyyən AZN | 31 dekabr 2025-ci il Cəmi AZN |
|---|---|---|---|---|---|---|---|---|
| **Qeyri-törəmə maliyyə aktivləri** | | | | | | | | |
| **Sabit faiz dərəcəli alətlər** | | | | | | | | |
| Banklardan alınacaq vəsaitlər | 6 | 33,589,552 | 112,007,000 | 75,745,500 | 185,319,000 | - | - | 406,661,052 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 7 | 314,787 | 1,301,190 | 221,989,740 | 40,625,480 | 70,425,781 | - | 334,656,978 |
| **Cəmi sabit faiz gəliri gətirən aktivlər** | | 33,904,339 | 113,308,190 | 297,735,240 | 225,944,480 | 70,425,781 | - | 741,318,030 |
| **Faiz hesablanmayan maliyyə aktivləri** | | | | | | | | |
| Pul vəsaitləri və Azərbaycan Respublikasının Mərkəzi Bankında yerləşdirilmiş vəsaitlər | 5 | 53,712,340 | - | - | - | - | - | 53,712,340 |
| Banklardan alınacaq vəsaitlər | 6 | 6,748,752 | - | - | - | - | - | 6,748,752 |
| Digər məcmu gəlirdə ədalətli dəyərində tanınan maliyyə aktivləri | 8 | 1,162,900 | - | - | - | - | - | 1,162,900 |
| Digər maliyyə aktivləri | 12 | 11,525,573 | - | - | - | - | - | 11,525,573 |
| **Cəmi faiz hesablanmayan aktivlər** | | 73,149,565 | - | - | - | - | - | 73,149,565 |
| **Cəmi qeyri-törəmə maliyyə aktivləri** | | 107,053,904 | 113,308,190 | 297,735,240 | 225,944,480 | 70,425,781 | - | 814,467,595 |

**29 Risklərin idarə edilməsi siyasəti (davamı)**

**Likvidlik riski**

| | Qeydlər | 1 aya qədər AZN | 1 aydan 3 ayadək AZN | 3 aydan 1 ilədək AZN | 1 ildən 5 ilədək AZN | 5 ildən artıq AZN | Qeyri-müəyyən AZN | 31 dekabr 2025-ci il Cəmi AZN |
|---|---|---|---|---|---|---|---|---|
| **Qeyri-törəmə maliyyə öhdəlikləri** | | | | | | | | |
| **Sabit faiz dərəcəli alətlər** | | | | | | | | |
| Banklar və dövlət qurumlarına qarşı öhdəlik | 13 | 418,235 | 836,303 | 167,375,159 | 34,182,150 | 5,682,598 | - | 208,494,445 |
| Müştərilər tərəfində yerləşdirilmiş depozitlər | 14 | 4,388,183 | 80,378,800 | 85,620,394 | 189,859,960 | 15,104,087 | - | 375,351,424 |
| Digər maliyyə öhdəlikləri | 15 | 26,947 | 54,611 | 269,259 | 399,300 | - | - | 750,117 |
| **Cəmi sabit faiz xərci yaradan öhdəliklər** | | 4,833,365 | 81,269,714 | 253,264,812 | 224,441,410 | 20,786,685 | - | 584,595,986 |
| **Faiz hesablanmayan maliyyə öhdəlikləri** | | | | | | | | |
| Müştərilər tərəfindən yerləşdirilmiş depozitlər | 14 | 86,625,796 | 600,000 | 14,464,246 | 19,040 | 2,724,521 | 20,800 | 104,454,403 |
| Digər maliyyə öhdəlikləri | 15 | 7,096,585 | - | - | - | - | - | 7,096,585 |
| **Cəmi faiz hesablanmayan öhdəliklər** | | 93,722,381 | 600,000 | 14,464,246 | 19,040 | 2,724,521 | 20,800 | 111,550,988 |
| **Cəmi qeyri-törəmə maliyyə öhdəlikləri** | | 98,555,746 | 81,869,714 | 267,729,058 | 224,460,450 | 23,511,206 | 20,800 | 696,146,974 |
| **Faiz dərəcəsi boşluğu** | | 29,070,974 | 32,038,476 | 44,470,428 | 1,503,070 | 49,639,096 | | |
| **Yığılmış faiz dərəcəsi həssaslığı** | | 29,070,974 | 61,109,450 | 105,579,878 | 107,082,948 | 156,722,044 | | |
| Likvidlik boşluğu | | 8,498,158 | 31,438,476 | 30,006,182 | 1,484,030 | 46,914,575 | | |
| **Yığılmış likvidlik boşluğu** | | 8,498,158 | 39,936,634 | 69,942,816 | 71,426,846 | 118,341,421 | | |

**29 Risklərin idarə edilməsi siyasəti (davamı)**

**Likvidlik riski**

| | Qeydlər | 1 aya qədər AZN | 1 aydan 3 ayadək AZN | 3 aydan 1 ilədək AZN | 1 ildən 5 ilədək AZN | 5 ildən artıq AZN | Qeyri-müəyyən AZN | 31 dekabr 2024-cü il Cəmi AZN |
|---|---|---|---|---|---|---|---|---|
| **QEYRİ-TÖRƏMƏ MALİYYƏ AKTİVLƏRİ** | | | | | | | | |
| **Sabit faiz dərəcəli alətlər** | | | | | | | | |
| Banklardan alınacaq vəsaitlər | 6 | 42,376,442 | 70,850,542 | 258,029,968 | 49,171,494 | - | - | 420,428,446 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 7 | 12,864,526 | 15,543,964 | 180,672,530 | 55,875,471 | 25,756,932 | - | 290,713,423 |
| **Cəmi sabit faiz gəliri gətirən aktivlər** | | 55,240,968 | 86,394,506 | 438,702,498 | 105,046,965 | 25,756,932 | - | 711,141,869 |
| **Faiz hesablanmayan maliyyə aktivləri** | | | | | | | | |
| Pul vəsaitləri və Azərbaycan Respublikasının Mərkəzi Bankında yerləşdirilmiş vəsaitlər | 5 | 41,967,963 | - | - | - | - | - | 41,967,963 |
| Banklardan alınacaq vəsaitlər | 6 | 3,929,370 | - | - | - | - | - | 3,929,370 |
| Digər məcmu gəlirdə ədalətli dəyərində tanınan maliyyə aktivləri | 8 | 1,621,651 | - | - | - | - | - | 1,621,651 |
| Digər maliyyə aktivləri | 12 | 9,406,200 | - | - | - | - | - | 9,406,200 |
| **Cəmi faiz hesablanmayan aktivlər** | | 56,925,184 | - | - | - | - | - | 56,925,184 |
| **Cəmi qeyri-törəmə maliyyə aktivləri** | | 112,166,152 | 86,394,506 | 438,702,498 | 105,046,965 | 25,756,932 | - | 768,067,053 |

**29 Risklərin idarə edilməsi siyasəti (davamı)**

**Likvidlik riski**

| QEYRİ-TÖRƏMƏ MALİYYƏ ÖHDƏLİKLƏRİ | Qeydlər | Tələb üzrə 1 aya AZN | 1 aydan 3 ayadək AZN | 3 aydan 1 ilədək AZN | 1 ildən 5 ilədək AZN | 5 ildən artıq AZN | Qeyri-müəyyən AZN | 31 dekabr 2024-cü il AZN |
|---|---|---|---|---|---|---|---|---|
| **Sabit faiz dərəcəli alətlər** | | | | | | | | |
| Banklar və dövlət qurumlarına qarşı öhdəlik | 13 | 17,833,785 | 16,110,473 | 111,283,236 | 17,150,347 | 14,292,959 | - | 176,670,800 |
| Müştərilər tərəfində yerləşdirilmiş depozitlər | 14 | 29,274,131 | 102,499,477 | 241,054,121 | 119,390 | - | - | 372,947,119 |
| Digər maliyyə öhdəlikləri | 15 | 23,085 | 41,740 | 200,761 | 647,926 | - | - | 913,512 |
| **Cəmi sabit faiz xərci yaradan öhdəliklər** | | 47,131,001 | 118,651,690 | 352,538,118 | 17,917,663 | 14,292,959 | - | 550,531,431 |
| **Faiz hesablanmayan maliyyə öhdəlikləri** | | | | | | | | |
| Müştərilər tərəfindən yerləşdirilmiş depozitlər | 14 | 92,102,848 | - | - | - | 8,114,843 | - | 100,217,691 |
| Digər maliyyə öhdəlikləri | 15 | 6,888,951 | - | - | - | - | - | 6,888,951 |
| **Cəmi faiz hesablanmayan öhdəliklər** | | 98,991,799 | - | - | - | 8,114,843 | - | 107,106,642 |
| **Cəmi qeyri-törəmə maliyyə öhdəlikləri** | | 146,122,800 | 118,651,690 | 352,538,118 | 17,917,663 | 22,407,802 | - | 657,638,073 |
| **Faiz dərəcəsi boşluğu** | | 8,109,967 | (32,257,184) | 86,164,380 | 87,129,302 | 11,463,973 | | |
| **Yığılmış faiz dərəcəsi həssaslığı** | | 8,109,967 | (24,147,217) | 62,017,163 | 149,146,465 | 160,610,438 | | |
| Likvidlik boşluğu | | (33,956,648) | (32,257,184) | 86,164,380 | 87,129,302 | 3,349,130 | | |
| **Yığılmış likvidlik boşluğu** | | (33,956,648) | (66,213,832) | 19,950,548 | 107,079,850 | 110,428,980 | | |

## 29 Risklərin idarə edilməsi siyasəti (davamı)

**Likvidlilik riski**

Yuxarıdakı cədvəldə ödəmə müddətinədək olan şərtlər müqavilə şərtlərinə uyğundur. Lakin, fiziki şəxslər qüvvədə olan qanunvericiliyə əsasən müddətdən öncə depozit müqaviləsini ləğv etmək hüquqlarına malikdirlər.

Aşağıdakı cədvəllərdə Qrupun geri ödəniş müddətləri razılaşdırılmış qeyri-derivativ maliyyə öhdəliklərinin müqavilə üzrə qalan ödəniş müddətlərinin təfərrüatları göstərilir. Cədvəllər Qrupdan ödəniş etməsinin tələb oluna biləcəyi ən erkən tarix əsasında maliyyə öhdəliklərinin diskontlaşdırılmamış pul hərəkəti üzrə tərtib edilmişdir. Cədvəllərdə həm faiz, həm də əsas pul hərəkəti məbləğləri göstərilir. Faiz hərəkəti dəyişən faiz dərəcələr üzrə baş verdiyi halda, diskontlaşdırılmamış məbləğlər hesabat dövrünün sonunda faiz dərəcəsi əyrisi əsasında müəyyən olunur. Müqavilə üzrə ödəniş müddəti Qrupdan ödəniş etməsinin tələb oluna biləcəyi ən erkən tarixə əsasən müəyyən olunur.

| QEYRİ-TÖRƏMƏ MALİYYƏ ÖHDƏLİKLƏRİ | Qeydlər | Orta çəkili effektiv faiz dərəcəsi | 1 aya qədər AZN | 1 aydan 3 ayadək AZN | 3 aydan 1 ilədək AZN | 1 ildən 5 ilədək AZN | 5 ildən artıq AZN | Qeyri-müəyyən AZN | 31 dekabr 2025-ci il Cəmi AZN |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Sabit faiz dərəcəli alətlər** | | | | | | | | | |
| Banklar və dövlət qurumlarına qarşı öhdəlik | 13 | 4.90% | 418,235 | 836,303 | 167,375,159 | 34,182,150 | 5,682,598 | - | 208,494,445 |
| Müştərilər tərəfindən yerləşdirilmiş depozitlər | 14 | 4.00% | 4,388,183 | 80,378,800 | 85,620,394 | 189,859,960 | 15,104,087 | - | 375,351,424 |
| Digər maliyyə öhdəlikləri | 15 | 19.60% | 26,947 | 54,611 | 269,259 | 399,300 | - | - | 750,117 |
| **Cəmi sabit faiz xərci yaradan öhdəliklər** | | | 4,833,365 | 81,269,714 | 253,264,812 | 224,441,410 | 20,786,685 | - | 584,595,986 |
| **Faiz hesablanmayan maliyyə öhdəlikləri** | | | | | | | | | |
| Müştərilər tərəfindən yerləşdirilmiş depozitlər | 14 | | 86,625,796 | 600,000 | 14,464,246 | 19,040 | 2,724,521 | 20,800 | 104,454,403 |
| Digər maliyyə öhdəlikləri | 15 | | 7,096,585 | - | - | - | - | - | 7,096,585 |
| Maliyyə zəmanətləri üzrə öhdəliklər | | | 4,168,660 | 8,881,509 | 32,886,057 | - | - | - | 45,936,226 |
| Kreditlər və istifadə olunmamış kredit xəttləri üzrə öhdəliklər | | | 17,017,361 | 8,904 | 8,708,203 | 2,787,871 | - | - | 28,522,339 |
| **Cəmi faiz hesablanmayan öhdəliklər və təəhhüdlər** | | | 114,908,402 | 9,490,413 | 56,058,506 | 2,806,911 | 2,724,521 | 20,800 | 186,009,553 |
| **Cəmi maliyyə öhdəlikləri və təəhhüdlər** | | | 147,032,020 | 112,880,804 | 464,757,045 | 37,507,751 | 8,407,119 | 20,800 | 770,605,539 |

## 29 Risklərin idarə edilməsi siyasəti (davamı)

**Likvidlilik riski**

| QEYRİ-TÖRƏMƏ MALİYYƏ ÖHDƏLİKLƏRİ | Qeydlər | Orta çəkili effektiv faiz dərəcəsi | 1 aya qədər AZN | 1 aydan 3 ayadək AZN | 3 aydan 1 ilədək AZN | 1 ildən 5 ilədək AZN | 5 ildən artıq AZN | Qeyri-müəyyən AZN | 31 dekabr 2024-cü il Cəmi AZN |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Sabit faiz dərəcəli alətlər** | | | | | | | | | |
| Banklar və dövlət qurumlarına qarşı öhdəlik | 13 | 4.54% | 17,833,785 | 16,110,473 | 111,283,236 | 17,150,347 | 14,292,959 | - | 176,670,800 |
| Müştərilər tərəfindən yerləşdirilmiş depozitlər | 14 | 3.17% | 29,274,131 | 102,499,477 | 241,054,121 | 119,390 | - | - | 372,947,119 |
| Digər maliyyə öhdəlikləri | 15 | 20.03% | 23,085 | 41,740 | 200,761 | 647,926 | - | - | 913,512 |
| **Cəmi sabit faiz xərci yaradan öhdəliklər** | | | 47,131,001 | 118,651,690 | 352,538,118 | 17,917,663 | 14,292,959 | - | 550,531,431 |
| | | | | | | | | | |
| **Faiz hesablanmayan maliyyə öhdəlikləri** | | | | | | | | | |
| Müştərilər tərəfindən yerləşdirilmiş depozitlər | 14 | | 92,102,848 | - | - | - | 8,114,843 | - | 100,217,691 |
| Digər maliyyə öhdəlikləri | 15 | | 6,888,951 | - | - | - | - | - | 6,888,951 |
| Maliyyə zəmanətləri üzrə öhdəliklər | | | 13,791,784 | 6,546,562 | 16,287,455 | 226,000 | - | - | 36,851,801 |
| Kreditlər və zəmanətlər üzrə öhdəliklər | | | 200,000 | 15,000 | 19,824,142 | 4,324,295 | - | - | 24,363,437 |
| **Cəmi faiz hesablanmayan öhdəliklər və təəhhüdlər** | | | 112,983,583 | 6,561,562 | 36,111,597 | 4,550,295 | 8,114,843 | - | 168,321,880 |
| **Cəmi maliyyə öhdəlikləri və təəhhüdlər** | | | 160,114,584 | 125,213,252 | 388,649,715 | 22,467,958 | 22,407,802 | - | 718,853,311 |

Yuxarıdakı maliyyə zəmanəti müqavilələri üzrə daxil edilmiş məbləğlər zəmanət üzrə qarşı tərəfin tələbi ilə tam zəmanəti verilmiş məbləğ üzrə razılaşmaya əsasən Qrupun ödəməli olacağı maksimum məbləğdir.

## 29 Risklərin idarə edilməsi siyasəti (davamı)

### Bazar riski

Bazar qiymətlərinin faiz dərəcələrinin dəyişmələrinin səviyyəsindən Qrupun mənfəətinə və ya kapitalına və ya biznes hədəflərinə çatmasına mənfi təsir göstərmək riskidir. Bazar riskinə faiz dərəcəsində, xarici valyuta məzənnələrində və qiymətləndirmədəki dəyişmələrdən yaranan və Qrupun məruz qaldığı bənzəri risklər aiddir. Risklərin Qrup tərəfindən qiymətləndirilməsində və Qrupun məruz qaldığı bazar risklərində əhəmiyyətli dəyişikliklər olmamışdır.

Sabit və dəyişən dərəcələrlə vəsaitləri cəlb etdiyi üçün Qrup faiz dərəcəsi riskinə məruzdur. Risk sabit və dəyişkən borc dərəcələrinin müvafiq balanslaşdırılması ilə idarə olunur.

Xəzinədarlıq şöbəsi, həmçinin Qrupun faiz dərəcəsi mövqeyinin uyğunlaşdırılması yolu ilə faiz və bazar risklərini idarə edir ki, bu da Qrupun müsbət faiz marjasını təmin etməsinə imkan yaradır. Xəzinədarlıq şöbəsi Qrupun cari maliyyə göstəricilərinə mütəmadi nəzarət edir, faiz dərəcələrində baş verə biləcək dəyişikliklərə qarşı Qrupun həssaslığını və bu dəyişikliklərin Qrupun gəlirliliyinə təsirini qiymətləndirir.

Qrupun kredit sazişlərinin və digər maliyyə aktivlərinin və öhdəliklərinin əksəriyyəti sabit faiz dərəcəsi daşıyır və borcverənin seçmə hüququ əsasında faiz dərəcəsinin dəyişməsini nəzərdə tutan müqavilə bəndləri mövcuddur. Qrup faiz dərəcəsi marjasının monitorinqini keçirir və bu səbəbdən zəruri faiz dərəcəsi riskinə və ya əhəmiyyətli pul vəsaitləri axımına məruz qalmadığını hesab edir.

### Faiz dərəcəsi riski

Qrup bazar faiz dərəcələrinin mövcud səviyyələrində baş verən dəyişikliklərin konsolidə edilmiş maliyyə vəziyyətinə və konsolidə edilmiş pul vəsaitləri axınlarına təsirlərinə məruz qalır. Faiz dərəcələrindəki bu cür dəyişikliklər faiz marjasının artmasına səbəb ola bilsə də, gözlənilməz hərəkətlər baş verdiyi təqdirdə faiz marjasının azalmasına və ya zərərlərin yaranmasına gətirib çıxara bilər. Rəhbərlik gündəlik əsasda faiz dərəcələrinin yenidən qiymətləndirilməsi üzrə uyğunsuzluğun səviyyəsinə nəzarət edir və bu uyğunsuzluq üçün müvafiq limitlər müəyyən edir.

Aşağıdakı cədvəldə faiz dərəcəsi riski üzrə həssaslıq təhlili təqdim edilmişdir. Bu təhlil “risk göstəricisinin ehtimal edilən mümkün dəyişməsi” üsulu ilə hesablanmış və faizlərin dəyişməsinə Qrupun həssaslığını əks etdirir. Bu dəyişikliklərin həddi rəhbərlik tərəfindən təyin edilir və onlara təqdim edilən risk hesabatlarında öz əksini tapır.

**Vergidən əvvəlki mənfəətə təsiri:**

| | **2025** | | 2024 | |
|---|---|---|---|---|
| | Faiz dərəcəsi +1 | Faiz dərəcəsi -1 | Faiz dərəcəsi +1 | Faiz dərəcəsi -1 |
| | **AZN** | **AZN** | AZN | AZN |
| **Maliyyə aktivləri** | **7,413,180** | **(7,413,180)** | 7,111,419 | (7,111,419) |
| **Maliyyə öhdəlikləri:** | **(5,845,960)** | **5,845,960** | (5,505,314) | 5,505,314 |
| **Mənfəət vergisindən əvvəl xalis təsir** | **1,567,220** | **(1,567,220)** | 1,606,105 | (1,606,105) |

## 29 Risklərin idarə edilməsi siyasəti (davamı)

### Xarici valyuta riski

Məzənnə fərqlərindən asılı olaraq maliyyə alətinin dəyərindəki dəyişmələr xarici valyuta riski adlanır. Qrupun maliyyə vəziyyəti və pul vəsaitlərinin hərəkəti mövcud valyuta məzənnələrinin dəyişməsi zamanı risklərin təsirinə məruz qalır.

Xəzinədarlıq manatın devalvasiya səviyyəsinin qiymətləndirilməsi və Qrupa milli valyutaya münasibətdə xarici valyuta kurslarının əhəmiyyətli dərəcədə oynamasından yaranan itkilərin minimallaşdırılması imkanı verən digər makroiqtisadi göstəricilərin əsasında açıq valyuta mövqeyinin idarə olunması yolu ilə valyuta riskini nəzarətdə saxlayır. Azərbaycan Respublikasının Mərkəzi Bankının tələblərinə uyğunluğunu təmin etmək məqsədilə Xəzinədarlıq departamenti Qrupun açıq valyuta mövqeyinin gündəlik olaraq monitorinqini həyata keçirir. Maliyyə aktivləri və öhdəliklərinin saxlanıldığı başlıca valyutalar üzrə Qrupun açıq mövqeyi aşağıdakı cədvəldə təqdim edilmişdir:

| | Qeydlər | Azərbaycan manatı | ABŞ dolları 1 ABŞ dolları = 1.7000 manat | Avro 1 Avro = 2.0022 manat | GBP 1GBP= 2.2970 manat | Digər valyuta | 31 dekabr 2025-ci il tarixinə cəmi |
|---|---|---|---|---|---|---|---|
| **Qeyri-törəmə maliyyə aktivləri** | | | | | | | |
| Pul vəsaitləri və Azərbaycan Respublikasının Mərkəzi Bankında yerləşdirilmiş vəsaitlər | 5 | 18,731,644 | 28,376,090 | 6,558,627 | 42,287 | 3,692 | 53,712,340 |
| Banklardan alınacaq vəsaitlər | 6 | 7,002,236 | 155,660,781 | 60,619,648 | 189,917,167 | 209,972 | 413,409,804 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 7 | 252,044,951 | 82,612,027 | - | - | - | 334,656,978 |
| Digər məcmu gəlirdə ədalətli dəyərində tanınan maliyyə aktivləri | 8 | 1,162,900 | - | - | - | - | 1,162,900 |
| Digər maliyyə aktivləri | 12 | 11,141,528 | 323,513 | 60,532 | - | - | 11,525,573 |
| **Cəmi qeyri-törəmə maliyyə aktivləri** | | 290,083,259 | 266,972,411 | 67,238,807 | 189,959,454 | 213,664 | 814,467,595 |
| **Qeyri-törəmə maliyyə öhdəlikləri** | | | | | | | |
| Banklar və dövlət qurumlarına qarşı öhdəlik | 13 | 70,520,818 | 137,973,627 | - | - | - | 208,494,445 |
| Müştərilər tərəfindən yerləşdirilmiş depozitlər | 14 | 99,766,293 | 120,384,539 | 67,680,249 | 191,766,528 | 208,218 | 479,805,827 |
| Digər maliyyə öhdəlikləri | 15 | 7,429,323 | 291,015 | 126,364 | - | - | 7,846,702 |
| **Cəmi qeyri-törəmə maliyyə öhdəlikləri** | | 177,716,434 | 258,649,181 | 67,806,613 | 191,766,528 | 208,218 | 696,146,974 |
| **Açıq valyuta mövqeyi** | | 112,366,825 | 8,323,230 | (567,806) | (1,807,074) | 5,446 | |

## 29 Risklərin idarə edilməsi siyasəti (davamı)

**Xarici valyuta riski (davamı)**

| | Qeydlər | Azərbaycan manatı | ABŞ dolları 1 ABŞ dolları = 1.7000 manat | Avro 1 Avro = 1.7722 manat | GBP 1GBP= 2.1382 manat | Digər valyuta | 31 dekabr 2024-cü il tarixinə cəmi |
|---|---|---|---|---|---|---|---|
| **Qeyri-törəmə maliyyə aktivləri** | | | | | | | |
| Pul vəsaitləri və Azərbaycan Respublikasının Mərkəzi Bankında yerləşdirilmiş vəsaitlər | 5 | 18,715,631 | 20,472,663 | 2,014,571 | 761,709 | 3,389 | 41,967,963 |
| Banklardan alınacaq vəsaitlər | 6 | 22,011,458 | 170,337,884 | 54,138,204 | 177,614,345 | 255,925 | 424,357,816 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 7 | 218,355,972 | 72,357,451 | - | - | - | 290,713,423 |
| Digər məcmu gəlirdə ədalətli dəyərində tanınan maliyyə aktivləri | 8 | 1,621,651 | - | - | - | - | 1,621,651 |
| Digər maliyyə aktivləri | 12 | 9,036,704 | 318,817 | 50,679 | - | - | 9,406,200 |
| **Cəmi qeyri-törəmə maliyyə aktivləri** | | 269,741,416 | 263,486,815 | 56,203,454 | 178,376,054 | 259,314 | 768,067,053 |
| **Qeyri-törəmə maliyyə öhdəlikləri** | | | | | | | |
| Banklar və dövlət qurumlarına qarşı öhdəlik | 13 | 36,012,930 | 140,657,870 | - | - | - | 176,670,800 |
| Müştərilər tərəfindən yerləşdirilmiş depozitlər | 14 | 123,700,336 | 112,740,998 | 56,451,364 | 180,016,225 | 255,887 | 473,164,810 |
| Digər maliyyə öhdəlikləri | 15 | 7,173,037 | 364,100 | 265,326 | - | - | 7,802,463 |
| **Cəmi qeyri-törəmə maliyyə öhdəlikləri** | | 166,886,303 | 253,762,968 | 56,716,690 | 180,016,225 | 255,887 | 657,638,073 |
| **Açıq valyuta mövqeyi** | | 102,855,113 | 9,723,847 | (513,236) | (1,640,171) | 3,427 | |

## 29 Risklərin idarə edilməsi siyasəti

### Xarici valyuta riski (davamı)

### Valytuta riskinə qarşı həssaslıq

Aşağıdakı cədvəl hesabat tarixinə Azərbaycan manatının (AZN) müvafiq xarici valyutalara nisbətdə 10% dəyişməsinə qarşı Qrupun həssaslığını əks etdirir. Həssaslıq təhlili yalnız xarici valyutada ifadə olunmuş və hesabat tarixinə mövcud olan monetar maddələri əhatə edir və həmin maddələrin dövr sonu məzənnələri əsasında xarici valyuta məzənnələrində 10% dəyişiklik nəzərə alınmaqla yenidən çevrilməsini nəzərdə tutur.

Aşağıda müsbət məbləğ Azərbaycan manatının müvafiq valyutaya qarşı 10% möhkəmlənməsi halında mənfəətin və digər kapital komponentlərinin artmasını ifadə edir. Azərbaycan manatının müvafiq valyutaya qarşı 10% zəifləməsi halında isə mənfəətə və kapitala oxşar həcmdə, lakin əks istiqamətdə təsir göstərəcək və bu halda cədvəldə göstərilən məbləğlər mənfi olacaqdır.

| | **İl üzrə mənfəət** | | **Kapital** | |
|---|---|---|---|---|
| | **2025-ci il** | 2024-cü il | **2025-ci il** | 2024-cü il |
| | **AZN** | AZN | **AZN** | AZN |
| ABŞ Dolları | **832,323** | 972,385 | **665,858** | 777,908 |
| AVRO | **(56,781)** | (51,324) | **(45,424)** | (41,059) |
| GBP | **(180,707)** | (164,017) | **(144,566)** | (131,214) |
| Digər valyutalar | **545** | 343 | **436** | 274 |

Bu əsasən hesabat dövrünün sonunda Qrupun ABŞ dolları, GBP İngilis funt sterlinqi və AVRO ilə ifadə olunmuş debitor və kreditor borclar mövcud mövqelərindən irəli gəlir.

Rəhbərlik hesab edir ki, həssaslığın təhlili qaçılmaz xarici valyuta mübadiləsi riskinin səciyyələrini açıqlamır, çünki, ilin sonuna olan itkilər riski il ərzindəki itkilər riskini əks etdirmir.

### Həssaslıq təhlilinin məhdudiyyətləri

Yuxarıda təqdim edilmiş cədvəllər əsas fərziyyələrdən birində baş verən dəyişikliyin, digər bütün fərziyyələrin dəyişməz qalması şərti ilə təsirini nümayiş etdirir. Lakin praktikada fərziyyələr ilə digər amillər arasında qarşılıqlı asılılıq (korrelyasiya) mövcuddur. Bundan əlavə, qeyd edilməlidir ki, bu həssaslıq göstəriciləri xətti xarakter daşımır və bu nəticələrə əsaslanaraq daha böyük və ya daha kiçik təsirlərin interpolyasiya və ya ekstrapolyasiya yolu ilə müəyyən edilməsi mümkün deyildir.

Həmçinin, həssaslıq təhlilində Qrupun aktiv və öhdəliklərini mütəmadi olaraq idarə etməsi nəzərə alınmır. Əlavə olaraq, Qrupun maliyyə vəziyyəti istənilən zaman faktiki bazar dəyişmələrinin nəticəsində dəyişə bilər. Məsələn, Qrupun maliyyə risklərinin idarə olunması strategiyası, bazardakı dəyişikliklərdən yaranan risklərə qarşı Qrupu qorumağı qarşısına məqsəd qoyur. İnvestisiya bazarlarında müşayiət edilən düşmələr zamanı qiymətlər müəyyən həddin altına düşdükdə, rəhbərlik investisiyaların satılmasına, investisiya portfelinin strukturunun dəyişdirilməsinə qərar verə bilər və ya digər qoruyucu qərarlar qəbul edə bilər. Nəticə etibarilə, konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatda aktivlər bazar dəyəri ilə əks etdirildiyindən, fərziyyələrdə baş verən dəyişikliklər öhdəliklərə faktiki təsir göstərməyə bilər. Bu kimi hallarda aktivlər və öhdəliklər üçün tətbiq edilən fərqli ölçmə əsasları səhmdar kapitalında dəyişkənliyə səbəb ola bilər.

Yuxarıda göstərilən həssaslıq təhlilinin digər məhdudiyyətlərindən biri Qrupun təxminlərinə görə ehtimal edilən riskləri təqdim etmək məqsədilə yalnız qısa müddətdə bazar dəyişmələri ilə əlaqədar proqnozlaşdırılması çətin olan fərziyyələrdən istifadə etməsidir; bu zaman təxmin edilir ki, bütün faiz dərəcələri eyni qaydada və istiqamətdə dəyişir.

## 29 Risklərin idarə edilməsi siyasəti (davamı)

### Qiymət riski – Qrupun məhsulları

Qrup ümumi və xüsusi bazar dəyişkənliyinə məruz qalan məhsullarının qiymət riski ilə üzləşir. Qrup qiymət riskini bazar mühitindəki mənfi dəyişikliklərdən irəli gələ biləcək potensial itkiləri dövrü olaraq hesablamaqla və müvafiq zərər-həddi məhdudiyyətlərini, habelə marja və girov tələblərini müəyyənləşdirib saxlamaqla idarə edir. İstifadə olunmamış kredit öhdəlikləri üzrə Qrup potensial olaraq bu öhdəliklərin ümumi məbləği həcmində zərərə məruz qala bilər. Bununla belə, faktiki zərər ehtimalı daha aşağıdır, çünki bu öhdəliklərin əksəriyyəti kredit müqavilələrində müəyyən edilmiş şərtlərin yerinə yetirilməsindən asılıdır.

### Əməliyyat riski

Əməliyyat riski sistemin işləməməsi, insan səhvi, saxtakarlıq və ya xarici hadisələrin təsiri nəticəsində yaranan zərər riskidir. Nəzarət vasitələri işləmədikdə, əməliyyat riskləri nüfuza xələl yetirə, habelə hüquqi müdaxilə və qanuni tənzimləmə yaxud da maliyyə itkiləri ilə nəticələnə bilər. Qrup bütün əməliyyat risklərini aradan qaldırmağı gözləyə bilməz, lakin o, bu riskləri nəzarət çərçivəsi və potensial risklərin monitorinqi və reaksiyası vasitəsilə idarə etməyə çalışır. Nəzarət tədbirlərinə vəzifələrin effektiv şəkildə bölgüsü, daxil olma, səlahiyyətlərin verilməsi və üzləşdirmə prosedurları, habelə işçilərin təhsili və qiymətləndirilməsi prosesləri daxildir.

## 30 Hesabat dövründən sonra baş vermiş hadisələr

Hesabat tarixindən konsolidə edilmiş maliyyə hesabatlarının təsdiq edildiyi tarixədək dövr ərzində düzəliş tələb edən və ya əhəmiyyətli düzəliş tələb etməyən hadisələr baş verməmişdir.